## “Dünən səhər danışdım onunla"

Əlverişsiz hava şəraitində azan hərbiçimizin anası danışdı



**Ruslan ötən il iyulun 18-də əsgərliyə gedib.**

Bunu İctimai TV-ə (İTV) açıqlamasında Ruslan Pənahovun anası deyib. "Bu gün mənə gəlib dedilər ki, uşaq yoxdur. Dünən səhər danışdım onunla. Dedi ki, yaxşıyam, narahat olma, hər şey yaxşıdır", - deyə o bildirib.

*Qeyd edək ki, fevralın 28-i səhər saatlarında Azərbaycan Ordusunun əsgəri Pənahov Ruslan Eldəniz oğlu Laçın rayonu ərazisindəki xidməti mövqelər arasında hərəkət edərkən əlverişsiz hava şəraitində istiqaməti itirərək azıb. Hərbi qulluqçumuzun tapılması məqsədilə dərhal başlanılan axtarış tədbirləri davam etdirilir.*



## Rəsulzadənin məzarının abadlaşdırılmasına başlanılıb

İşlər Türkiyənin müvafiq dövlət qurumları ilə koordinasiyalı şəkildə həyata keçirilir

**Məhəmməd Əmin Rəsulzadənin Ankaradakı məzarı abadlaşdırılır.**

"Şərq" xəbər verir ki, bu barədə Azərbaycanın Türkiyədəki səfirliyi məlumat ayıb.

(səh.3)



# Mümkün deyil

Kollektiv Qərb Ukraynaya ordu göndərməyəcək

**Fransa Prezidenti Emmanuel Makron Ukraynaya Avropa qoşunlarının göndərilməsini istisna etməyib.**

Bu barədə Fransa lideri Parisdə Ukrayna məsələsinin müzakirəsi üçün 20-yə yaxın ölkə liderinin toplantısından sonra mediaya açıqlamasında deyib.

Buna baxmayaraq, o, hazırkı mərhələdə bu məsələdə konsensus olmadığını da bildirib: "Hazırda Ukraynaya ordu göndərmək üçün konsensus yoxdur. Amma heç nəyi istisna etmək olmaz. Rusiyanın qalib gəlməsinin qarşısını almaq üçün əlimizdən gələni edəcəyik".

"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə bildirib ki, Kollektiv Qərbin Ukraynaya ordu göndərməklə bağlı hələ real addımları yoxdur...

(səh.4)


№ 39 (6040) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 29 fevral 2024-cü il (cümə axşamı)




## “Rusiya yeni reallıqları qəbul edir”

Prezident İlham Əliyev: “ABŞ və Fransa da eyni cür hərəkət etməlidir”

**“Almaniya Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir”.**

Bu barədə fevralın 28-də Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib. Prezident keçən il Berlinə səfəri zamanı Almaniya kansleri ilə görüşündə əlaqələrin geniş gündəliyinə daxil olan məsələlərin, o cümlədən iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd edib. Eyni zamanda dövlət başçısı kansler Şoltsun təşəbbüsü ilə bu yaxınlarda Münhendə Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirilən görüşün sülh prosesinə dinamizm gətirilməsi baxımından önəmini vurğulayıb.

(səh.2)

## Ərdoğan tapşırıq verib

Türkiyə milli təhlükəsizlik siyasətini yeniləyir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müasir dövrün xarici və daxili çağırışları fonunda milli təhlükəsizlik siyasətinin yenilənməsi tapşırığını verib.**

Qardaş ölkənin Milli Təhlükəsizlik Şurasının Katibliyi dövlətin təhlükəsizlik siyasətinin əsaslarını formalaşdıran sənədin yenilənmiş redaksiyada hazırlanan variantına daxil edilməsi üçün nazirlik və idarələrə tövsiyə və təkliflərini təqdim etməyi tapşırıb. Məlumatlara görə, Türkiyənin milli təhlükəsizlik siyasəti üzrə yekun layihə Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçiriləcək Milli Təhlükəsizlik Şurasının aprel iclasında müzakirə olunacaq.

(səh.2)

# Berlində sülh danışıqları baş tutdu

## Berbok: “Azərbaycan və Ermənistan keçmişi arxada qoymaq üçün cəsarətli addımlar atıb”



**Azərbaycan və Ermənistan XİN rəhbərləri Ceyhun Bayramov və Ararat Mirzoyan Berlində görüşüblər. Tərəflər sülh müqaviləsi layihəsi ətrafında müzakirələr aparıblar. Nazirlərin görüşü Almaniya XİN-in Borsiq villasında keçirilib.**

Danışıqlardan sonra görüş Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramov, Ermənistan XİN rəhbəri Ararat Mirzoyan və Almaniya XİN rəhbəri Annalena Berbok arasında üçtərəfli formatda davam edib.

Azərbaycan və Ermənistan keçmişi arxada qoymaq və irəliləmək üçün cəsarətli addımlar atıb.

Bunu Almaniya xarici işlər naziri Annalena Berbok Azərbaycan və Ermənistandan olan həmkarları ilə üçtərəfli görüşdən əvvəl deyib.

O bildirib ki, indi dayanıqlı sülhün əldə olunması imkanı var. Hər iki tərəf artıq keçmişi arxada qoymaq üçün cəsarətli addımlar atıb.

(səh.3)

# Su ehtiyatlarımız getdikcə azalır

Bizim iqlim dəyişmələrinə cavab verməyən sovetdənqalma köhnə su infrastrukturumuz var, dəyişməsək, işimiz çətin olacaq



**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya və Aqrar siyasət komitələrinin birgə təşkilatçılığı ilə keçirilən ”Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar” mövzusunda dinləmədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov bildirib ki, dünyada baş verən qlobal iqlim dəyişikliklərinin su ehtiyatlarına mənfi təsiri getdikcə artmaqdadır:**

"Azərbaycan su ehtiyatları olduqca məhdud ölkədir. 30 milyard kubmetr yerüstü su ehtiyatımız var. Son baş verən iqlim dəyişikliklərindən sonra bu ehtiyatlarımız kəskin azalıb, 2022-ci ildə cəmi 17 milyard təşkil edib.

(səh.4)



## Ermənistan Rusiyaya etiraz notası göndərib

**Ermənistan Xarici İşlər Nazirliyi Rusiyaya etiraz notası göndərib.**

"Report" "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə Ermənistanın yüksək texnologiyalar naziri Mxitar Ayrapetyan bildirib.

Buna səbəb kimi Rusiyanın televiziya yayımı standartlarını pozduğu göstərilib.

"Rusiya ilə kütləvi kommunikasiyalar sahəsində əməkdaşlığa dair dövlətlərarası saziş çox güman ki, təkmilləşdiriləcək və ya redaktə ediləcək. İki ölkənin səlahiyyətli rəsmiləri arasında müzakirələrdən iki ay sonra yenidən qanun pozuntusu qeydə alınıb", - nazir vurğulayıb.

## Erməni tarix dərsliyindəki faktlar təsadüfi hal deyil

Qarabağın Azərbaycanın tərkib hissəsi olaraq Ermənistanın tədris kitablarına salınması yaxşı nümunədir



**Ermənistanda tədris edilən 7-ci sinif tarix kitabında Qarabağın Azərbaycan ərazisi kimi göstərilməsi rezonans doğurub.**

7-ci sinif şagirdlərinin valideynləri Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyini məhkəməyə verir.

(səh.4)

## Fransa kimi ölkələr regiona soxulmaq istəyirlər

Məqsədləri bölgədə çaxnaşma yaratmaqdır, Azərbaycan buna qarşı mübarizə aparır və aparacaq



**Fransa inadla Cənubi Qafqazda regional sabitliyi pozmağa davam edir.**

Rəsmi Paris Azərbaycanın dəfələrlə etdiyi çağırışlara məhəl qoymayaraq, Ermənistanda revanşist əhval-ruhiyyəni qızışdırmağa, bu ölkəyə hərbi dəstək verməyə və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını əngəlləməyə çalışır.

(səh.5)



## Növbəti sülh danışıqları birbaşa sərhəddə olsun!

Elmar Məmmədyarov: “Berlin, Vaşinqton, Brüssel və Moskva görüşünün mənası yoxdur”

(səh.3)



## Zelenskinin İrəvana səfər ehtimalı çox azdır

Qərbin tələblərinə baxmayaraq, bu səfər Ukrayna və Ermənistan üçün risklidir

(səh.5)



biz Cənubi Qafqazda ayrıca xətlərin qurulması cəhdlərini görürük”. Dövlət başçısının sözlərinə görə, bununla bağlı Azərbaycanda bir çox insanlar belə düşünürlər ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstan və Ermənistanı çox yaxın qəbul etdikləri, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu bizim islam dinimizdir: ”Mən demirəm ki, bu mənim şəxsi fikrimdir, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar

# “Rusiya yeni reallıqları qəbul edir”

## Prezident İlham Əliyev: “ABŞ və Fransa da eyni cür hərəkət etməlidir”

**“Almaniya Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir”. Bu barədə fevralın 28-də Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib. Prezident keçən il Berlinə səfəri zamanı Almaniya kansleri ilə görüşündə əlaqələrin geniş gündəliyinə daxil olan məsələlərin, o cümlədən iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd edib.**

Eyni zamanda dövlət başçısı kansler Şoltsun təşəbbüsü ilə bu yaxınlarda Münhendə Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirilən görüşün sülh prosesinə dinamizm gətirilməsi baxımından önəmini vurğulayıb. Bununla yanaşı, Almaniya tərəfinin təklifi ilə xarici işlər nazirləri arasında Berlində görüşün keçirilməsinin də Azərbaycan tərəfindən dəstəkləndiyini qeyd edib: ”Almaniya qonşuluğunda yerləşən necə deyərlər, alovun üstünə benzin tökən və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir”. Ölkə başçısı vurğulayıb ki, ölkəmizin öz suverenliyi və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı bizi hər hansı günahlandırma cəhdləri tamamilə əsassız və qərəzlidir: ”Azərbaycan öz ərazisini və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır”.

**“Azərbaycan sülh prosesinə sadiqdir”**

**Dövlət başçısı qeyd edib ki, Azərbaycan tərəfi İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edib:** ”Əslində, biz sülh yolu ilə həllin 5 əsas prinsipini işləyib hazırladıq və sülh müqaviləsinin mətninin layihəsini təqdim etdik. Beləliklə, biz əgər sülh istəmiriksə, niyə bunların hamısını hazırlamışıq?!”. Prezident vurğulayıb ki, Azərbaycan əraziləri 30 il Ermənistanın işğalı altında olub: ”Ermənilər torpaqlarımızın 20 faizini işğal edərək, həmin əraziləri dağıdıblar, o vaxt 1 milyona yaxın soydaşımız məcburi köçkün vəziyyətinə düşdü. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan bu müddətdə BMT TŞ-nin məlum qətnamələrinə, beynəlxalq hüquq normalarına, o cümlədən humanitar normalara məhəl qoymadı. İki gün əvvəl ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımını törətdilər. Və indi biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdikdən və Qarabağda separatizm yuvasını dağıtdıqdan sonra hücumlara məruz qalmışıq. Biz Makron, Borrel və onlar kimi digər insanlar tərəfindən günahlandırılırıq”.

**“Siz hamınız bəyan edirsiniz ki, Ukrayna öz ərazi bütövlüyünü təmin etməlidir. Bəs bizim ərazi bütövlüyümüz?!”**

Prezident deyib ki, Ukrayna öz ərazi bütövlüyünü bərpa etmək istəyir. Almaniya və digər ölkələr Ukraynaya silahlar göndərir: ”Siz hamınız bəyan edirsiniz ki, Ukrayna öz ərazi bütövlüyünü təmin etməlidir. Bəs bizim ərazi bütövlüyümüz?! Məgər, bu məsələ Ukrayna məsələsindən daha az önəmlidir? Əfsuslar olsun ki, biz Cənubi Qafqazda ayrıca xətlərin qurulması cəhdlərini görürük. Bununla bağlı Azərbaycanda bir çox insanlar belə düşünürlər ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstan və Ermənistanı çox yaxın qəbul etdikləri, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu bizim islam dinimizdir. Mən demirəm ki, bu mənim şəxsi fikrimdir, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?! Almaniya kansleri qərəzsizlik nümayiş etdirir və onun bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkarcasına və məqsədyönlü şəkildə edir. Bildiyiniz kimi, biz bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlmişik. Çünki əgər bizim öz mövqeyimizi bildirmək hüququmuz yoxdursa, nəyə görə biz orada olmalıyıq”.

**“Biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik”**

**“Azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq”**

**Ölkə başçısı bildirib ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq:** ”Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə sərhəddə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat və dəqiq cavab verməli olduq. Bizim bu cavab bir neçə dəqiqə çəkdi və Ermənistanın bunu dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq və dediyim kimi, ötən ilin sentyabrından bu hadisə istisna olmaqla sərhəddə sakitçilik hökm sürür”.

**Prezident deyib ki, bu gün ikili standartlar bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib:** ”Bu baxımdan Cozef Borrelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib. Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Belə ki, Borrel bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Əvvəla, Borrel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın, guya, Azərbaycanın Ermənistana hücuma hazırlanması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir. Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə sərhəddə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat və dəqiq cavab verməli olduq. Bizim bu cavab bir neçə dəqiqə çəkdi və Ermənistanın bunu dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq və dediyim kimi, ötən ilin sentyabrından bu hadisə istisna olmaqla sərhəddə sakitçilik hökm sürür. Deməli, cənab Borrel və cənab Makron bu informasiyanı reallıqdan deyil, öz xəyallarından götürürlər”.

**”Şoltsun partiyasının üzvü məqsədyönlü şəkildə Azərbaycanı AŞPA-dan uzaqlaşdırmaq istəyir”**

**Prezident vurğulayıb ki, Şoltsun partiyasının üzvü məqsədyönlü şəkildə Azərbaycanı AŞPA-dan uzaqlaşdırmaq istəyir:** ”Əfsuslar olsun ki,

qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?! Almaniya kansleri qərəzsizlik nümayiş etdirir və onun bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkaranə və məqsədyönlü şəkildə edir. Bildiyiniz kimi, biz bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlmişik. Çünki əgər bizim öz mövqeyimizi bildirmək hüququmuz yoxdursa, nəyə görə biz orada olmalıyıq?”.

**Azərbaycan lideri qeyd edib ki, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik:** ”Əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik”. Dövlət başçısı bir məsələni də təəssüflə qeyd edib ki, Almaniya mətbuatında Azərbaycan, guya, azadlıqların təmin olunmadığı, insanların öz fikirlərinə görə həbs olunduğu, diktaturanın hökm sürdüyü despotik bir ölkə kimi təqdim edilir. ”Bu, tamamilə yalandır və mən bundan təəssüf hissi keçirirəm”, - deyən Prezident bunu həmin yazıların müəlliflərinin özlərinin də yaxşı bildiyini vurğuladı və qeyd etdi ki, Azərbaycanda bir neçə ildir fəaliyyət göstərən Almaniya səfiri də ölkəmizdə gedən proseslərin şahididir. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan haqqında bilərəkdən çox mənfi təəssürat yaradılır: ”Bütün bunlar bizim həyata keçirdiyimiz işlərə mane ola bilərmi?! Xeyr! Biz istər ərazi bütövlüyünün bərpası, istər iqtisadi gündəliyimizlə bağlı öz xalqımızın, ölkəmizin rifahı naminə işlər görürük”.

**“Biz öz torpaqlarımızı azad etməyə başlayanda bu üç ölkə bizə təzyiqlər göstərməyə başladı”**

**Prezident bəyan edib ki, Rusiya yeni reallıqları qəbul edir, ABŞ və Fransa da eyni cür hərəkət etməlidir:** ”Ölkəmizdə gedən proseslər və həyata keçirilən işlər Azərbaycanın normal həyatını təmin edir. Kimsə bizim inkişafımıza töhfə vermək istəyirsə, biz minnətdar olarıq. Bu olmazsa, biz yenə də təəssüflənməyəcəyik”. Sovet dövründə 70 il ölkəmizin dövlətçilikdən məhrum olduğunu deyən Prezident İlham Əliyev qeyd edib ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenicə bərpa etdiyi vaxtda Ermənistanın ölkəmizə qarşı təcavüzü ilə üzləşib və müstəqilliyin bərpasından 4 ay sonra ermənilər Xocalı soyqırımını törətdilər: ”Yüzlərlə şəhər və kəndlərimizi işğal etdilər, oraları dağıtdılar. 30 illik bir müddətdə özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. Və biz öz torpaqlarımızı azad etməyə başlayanda bu üç ölkə bizə təzyiqlər göstərməyə başladı. Hər biri bizi öz yolumuzdan döndərmək üçün müxtəlif alətlərdən istifadə etdilər. Onlar istəmirdilər ki, biz öz torpaqlarımızı azad edək. Ötən ilin sentyabrında biz separatizmə son qoyduğumuz zaman onlar yenə də səhv etdilər. Onların bəziləri indi də səhv edirlər. Mən ABŞ və Fransanı nəzərdə tuturam. Düşünürəm ki, Rusiya indi nəyin baş verdiyini yaxşı anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransa da eyni cür hərəkət etməlidirlər. Əks təqdirdə, vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazda buranın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər”.

**İsmayıl**

# Ərdoğan tapşırıq verib

## Türkiyə milli təhlükəsizlik siyasətini yeniləyir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müasir dövrün xarici və daxili çağırışları fonunda milli təhlükəsizlik siyasətinin yenilənməsi tapşırığını verib.**

Türkiyə mediası xəbər verir ki, qardaş ölkənin Milli Təhlükəsizlik Şurasının Katibliyi dövlətin təhlükəsizlik siyasətinin əsaslarını formalaşdıran sənədin yenilənmiş redaksiyada hazırlanan variantına daxil edilməsi üçün nazirlik və idarələrə tövsiyə və təkliflərini təqdim etməyi tapşırıb.

Məlumatlara görə, Türkiyənin milli təhlükəsizlik siyasəti üzrə yekun layihə Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçiriləcək Milli Təhlükəsizlik Şurasının aprel iclasında müzakirə olunacaq.

Türkiyənin milli təhlükəsizlik siyasəti son çağırışlar və ölkəyə qarşı təhdidlərlə əlaqədar mütəmadi olaraq yenilənir.

Sənədin əvvəlki redaksiyasının geniş ictimaiyyət üçün qapalı olan müzakirəsi 2019-cu il sentyabrın 30-da Milli Təhlükəsizlik Şurasında olub.

# Azərbaycan və Almaniya XİN rəhbərləri görüşüb

## Ceyhun Bayramov Ermənistan Konstitusiyasında ərazi iddialarının qəbuledilməzliyini Berbokun diqqətinə çatdırıb



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Almaniyaya işgüzar səfəri çərçivəsində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşüb.**

XİN-dən verilən xəbərə görə, görüş zamanı iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyi, eləcə də Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesinin hazırki vəziyyəti və perspektivləri müzakirə olunub.

Almaniyanın xarici işlər naziri Annalena Berbok iki ölkə arasında münasibətlərin əhəmiyyətini qeyd edib. Ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb.

Nazir Ceyhun Bayramov Azərbaycan və Almaniya arasında son dövrlərdə dinamik xarakter daşıması ilə seçilən təmasların məmnunluq doğurduğunu, xüsusilə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ali səviyyədə aparılan müzakirələrin əhəmiyyətini vurğulayıb.

Almaniyanın Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışıqların təşkilində göstərdiyi dəstəyə və təşəbbüsə görə təşəkkür bildirilib.

Nazir Ceyhun Bayramov ölkəmizin normallaşma və sülh gündəliyinin irəlilədilməsində qərarlı olduğu bildirilib. Buna baxmayaraq, 5 aya yaxın sürən sabitliyin Ermənistan tərəfindən pozulmasının sülh prosesinə zərbə vurmaq məqsədi daşıdığını diqqətə çatdırıb.

Bununla yanaşı, Ermənistanın Konstitusiyasında və qanunvericiliyində, siyasi və hüquqi proseslərdə ölkəmizə qarşı irəli sürülən ərazi iddialarını, qeyri-konstruktiv mövqe və ritorikasını davam etdirməsinin qəbuledilməz olduğu vurğulanıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Şəhanə**

# Sülh danışıqları rahatlıqla gərginliyə çevrilə bilər

## Fransa Aİ missiyası adı altında regiona öz jandarmlarını, xüsusi təyinatlılarını, agentlərini yeridir



**”İrəvan və Bakı arasında təmasların davam etməsi, görüşlərin qısa zaman ərzində baş tutması, habelə danışıqlar masasında Bakının irəli sürdüyü beş baza prinsipi əsasında tərtib edilən ilkin sülh sənədinin olması müsbət haldır. Lakin sülh danışıqları getsə də, risk faktorları qalır. Sülh danışıqları rahatlıqla gərginliyə çevrilə bilər”.**

*Bunu ”Şərq”ə açıqlamasında politoloq Turan Rzayev deyib. Ekspert bildirib ki, başda Fransa olmaqla Qərb Ermənistanı Azərbaycana qarşı müharibəyə hazırlayır. Bu proses əsasən iki səpkidə özünü göstərir:* ”Qərb mediasında anti-Azərbaycan isteriyası genişlənir və Ermənistanın silahlandırılması davam edir. Bu gün Qərbdə və Ermənistanda məqsədyönlü şəkildə Azərbaycanın hücuma hazırlaşması haqda dezinformasiyalar yayılır. Bu dezinformasiyalar Fransa və onun dəstəklədiyi media subyektləri vasitəsilə dərc edilib, muzdlu ekspertlər vasitəsilə arqumentləşdirilib tirajlanır. Paris və onun trayektoriyasındakı Qərb ölkələri bu yolla həm qərb auditoriyalarında Azərbaycanın mənfi imicini yaradır, həm də Ermənistan daxilində panika, qorxu və revanşizm meyillərini artırırlar.

Ermənistan müharibəyə hazırlıq istiqamətində silahlandırılır. Paris bu istiqamətdə Hindistanla ortaq hərəkət edir və maksimum qısa müddətdə İrəvanı lazımi silahlarla təmin etməyə çalışır”.

**Analitikin sözlərinə görə, diqqətçəkən məqam budur ki, Fransa Aİ missiyası adı altında regiona öz jandarmlarını, xüsusi təyinatlılarını, agentlərini yeridir:** ”Şərti dövlət sərhədində yerləşdirilən bu qüvvələr isə açıq-aşkar Azərbaycan haqda kəşfiyyat məlumatlarını toplayıb, ”binokl diplomatiyası” üçün casusluq edir.

Azərbaycan mövcud vəziyyətin və Parisin nə etmək istədiyinin fərqindədir. Buna görə də israrla sülh prosesinə fokuslanıb, təxribatlara cavab vermir. Bizim üçün prioritet sülh müqaviləsidir, lakin məsələ Fransaya cavabdırsa, Bakı Təşəbbüs Qrupunun fəaliyyəti bunu təmin edir”.

**İsmayıl**



# Ordumuz və xalqımız hər ssenariyə hazır olmalıdır

## Düşmənlərimiz istənilən vaxt öz çirkin niyyətlərinə əl ata bilər

**Azərbaycanda respondentlərin 55,8 faizinin fikrincə, ötən ilin əvvəllərində Qarabağ ətrafında gedən hərbi-siyasi proseslərin, ekoloji aksiyaların və sərhəd nəzarətinin təmin olunmasının ardından çətin dövr artıq geridə qalıb.**

Bu, Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi rəy sorğusunun nəticəsində məlum olub. Respondentlərin 27,2 faizi ”hazırda çətin dövrdən keçirik” cavabını qeyd edərkən 15,7 faizi çətin dövrün irəlidə olduğunu bildirib.

Sorğunun nəticələrinin respondentlərin sosial-demoqrafik parametrlərinə görə təhlili onların rəylərində müxtəlif amillərin təsirli olduğunu göstərib. Yaş artdıqca ”çətin dövr geridə qalıb” mövqeyində olanların sayında daha çox artım qeydə alınıb. Bu mövqe ali təhsillilərin 55,1 faizi, dövlət sektorunda işləyənlərin 69,4 faizi və təqaüdçülərin 62,5 faizi tərəfindən ifadə olunub. ”Hazırda çətin dövrdən keçirik” cavabı əsasən kişilərlə müqayisədə qadınların, həmçinin aztəminatlı qrupların rəylərində yer tutub.

Fransanın hərbiçiləri tərəfindən ermənilərə təlimlərin keçirildiyini müşahidə edirikt

**STM-nin sorğusunu dəyərləndirən millət vəkili Azər Badamov isə ”Şərq”ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi rəy sorğusunda iştirak edən respondentlərin çoxluğu ilə razılaşdığını deyib. Millət vəkilinin sözlərinə görə, Cənab Prezident İlham Əliyev Xankəndidə səs verməklə Dağlıq Qarabağ məsələsinin tabutuna son mismarını vurdu və dəfn edildi**: ”Artıq Azərbaycanda belə bir inzibati ərazi mövcud deyil. Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları var və bu ərazilərdə suverenliyimiz təmin olunaraq üçrəngli dövlət bayrağımız dalğalanır. Amma bu o demək deyil ki, bundan sonra özümüzü rahat hiss edib passivləşməliyik. Üç il əvvəl müharibə başa çatsa da, bu gün bizim daha çox güclənməyimiz tələb olunur. Qərbdəki ağaları Ermənistanı yenidən silahlandırır. Məqsədləri isə Ermənistanı növbəti müharibəyə hazırlamaqdır. 5 aylıq sükutdan sonra, Fransanın cızdığı ssenarisi üzrə 14 fevraldan başlayaraq şərti sərhəddə atəşkəsin pozulduğunu da görürük. O cümlədən Fransanın hərbiçiləri tərəfindən ermənilərə təlimlərin keçirildiyini də müşahidə edirik. Bütün bu proseslər gözümüzün qabağında baş verə-verə, biz necə rahat ola bilərik?”.

**A.Badamovun sözlərinə görə, Qarabağ münaqişəsi bitsə də, ordumuz və xalqımız hər bir ssenariyə hazır olmalıdır. Əgər Ermənistan Qərbin dəstəyi ilə şərti sərhədə hücum edib müəyyən strateji hündürlükləri işğal edərək danışıqlar masasında üstünlük qazanmaq planını işə salmaq istəsə, biz buna dərhal reaksiya verməli və düşmənin həmləsinin qarşısını tez zamanda almalıyıq:** ”Bu baxımdan müharibənin başa çatdığı üç ildən artıq bir dövrdə dövlət başçımızın tapşırığı ilə yeni ordu birləşmələri yaradılır. Orduya müasir silahlar alınır və mütəmadi olaraq hərbi təlimlər keçirilir. Bu gün ordumuz 44 günlük Vətən müharibəsində döyüşdüyündən daha güclüdür. Keçən ilin 20 sentyabrında keçirdiyimiz bir sutkalıq hərbi əməliyyatda Ermənistanın 15 minə yaxın silahlını təslim etməsi ordumuzun yeni gücünün göstəricisidir. Amma biz heç vaxt arxayınlaşmamalıyıq. Düşmən hər zaman öz çirkin niyyətlərinə əl ata bilər. Ordumuz da daima düşmənin hər hansı bir təxribatına və ya hücumuna cavab vermək iqtidarında olmalıdır. Bizim qarantımız ancaq öz gücümüz və ordumuzdur”.

**Şəymən**

# Sumqayıt hadisələrindən 32 il ötür

## Ermənilər hələ də sovet “KQB”-si ilə birlikdə təşkil etdikləri iğtişaşları bizim ayağımıza yazmağa çalışırlar

**Sumqayıt hadisələrindən 36 il ötdü. 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər ölüb. Onlardan 26-sı erməni, 6-sı azərbaycanlı olub. Sumqayıt hadisələri erməni millətçiləri tərəfindən təşkil edilib. İğtişaşların baş verməsində Sumqayıt əhalisi arasına yerləşdirilən və Azərbaycan dilini təmiz bilən ermənilərdən ibarət təxribatçı qruplar xüsusi rol oynayıb.**



Vasif Əfəndiyev: “Sumqayıt hadisələrinin ardınca Xocalı faciəsi də eyni ssenari üzrə təşkil olunmuşdu. Bir sumqayıtlı olaraq hadisələrin bütün gedişatını tam təfsilatı ilə xatırlayıram”

Bu hadisələr SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərlə birgə təşkil etdiyi və həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Sumqayıtda bu hadisəni təşkil etmək üçün seçilmiş şəxs də erməni - iki dəfə məhkum olunmuş Eduard Qriqoryan olub. Sumqayıt hadisələrinin təşkilatçısı kimi azərbaycanlı Əhməd Əhmədov güllələnmə cəzasına məhkum edilsə də, şahid ifadələri əsl günahkarın, əslində, erməni Eduard Qriqoryan olduğunu sübut edir. Sumqayıt hadisəsi zamanı yüzlərlə azərbaycanlı ailəsi həyatlarını təhlükə qarşısında qoyaraq, erməni qonşularını qəzəblənmiş kütlənin təhlükəsindən xilas edib. Bu hadisələrin Moskva tərəfindən törədildiyini SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ovaxtkı sədri Vladimir Kryuçkov da etiraf edib. SSRİ DTK-sının himayə etdiyi həmin qruplar şəhərin müxtəlif yerlərində qətliamlar törədib. Erməni millətindən olan 26 nəfərin qətlini məhz bu dəstələr həyata keçirib. Şəhərə yeridilən general Krayevin rəhbərlik etdiyi ordu hissələri isə bunları kənardan izlədikdən sonra - fevralın 29-da hadisələrə müdaxilə edib. Nəticədə 6 azərbaycanlı tankların tırtılları altında qalaraq həlak olub, 400 nəfər xəsarət alıb, 200 mənzil talan edilib, 50 mədəni-məişət obyekti dağıdılıb, 40-dan çox avtomobil yararsız hala salınıb. Öldürülən ermənilərin, demək olar ki, hamısı erməni terror fondlarına pul keçirməkdən imtina edənlər olub. Eduard Qriqoryan Sumqayıt hadisələri zamanı 5 ermənini şəxsən öldürüb, 8 erməni qadını zorlayıb. Lakin erməni təşkilatları bu cür cinayətlər törətmiş E.Qriqoryanı ağır cəzadan qurtara bilib. E.Qriqoryana 12 il iş verilib və o, bir neçə ildən sonra azadlığa buraxılıb. Digər təqsirləndirilən şəxs azərbaycanlı Əhməd Əhmədov isə Moskvada keçirilmiş məhkəmənin hökmü ilə güllələnməyə məhkum edilib və hökm icra olunub. Bundan başqa, iğtişaşlara görə 3 minə yaxın günahsız Sumqayıt sakini həbs olunub. Onlardan 400-ü inzibati məsuliyyətə cəlb edilib, 94 nəfər barəsində isə cinayət işi açılıb. Ermənilər bu gün də Sumqayıt hadisələrindən öz məqsədləri üçün yararlanmağa davam edirlər. Onlar Sumqayıt hadisələri haqqında dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa, anti-Azərbaycan əhval-ruhiyyəsi yaratmağa çalışırlar. Sumqayıt hadisələrinin şahidi, tədqiqatçı Ramazan Məmmədov da demişdi ki, 1988-ci ildə Sumqayıtda törədilən iğtişaşlar fevralın 27-si axşam saat yeddinin yarısında başlayıb və həmin axşam sovet ordusu dördüncü məhəlləyə daxil olsa da, bir-iki gün heç nə etməyib. Əslində, iğtişaşlara şərait yaradılıb. Erməni tərəfi bir göz qırpımında bu hadisələrə ”qiymət” verməyə başlayıb. Sumqayıt şəhərində 27-28-29 fevral və martın birində baş vermiş hadisələr qurtarmamış Pribaltikada Yurmala şəhərində nəşr olunan ”Yurmala” qəzetində Sumqayıt hadisələrinə ”qiymət” verilib. Xəbərlərin əvvəlcədən hazırlanması da göstərir ki, iğtişaşlar əvvəlcədən təşkil olunubmuş. Əgər Ermənistanda arxivlər açılarsa, bütün həqiqətlər üzə çıxar. Həm Ermənistan, həm də dünya ictimaiyyəti baş verən hadisələr haqqında həqiqətləri öyrənər. Özünü demokrat kimi qələmə verən Paşinyan niyə arxivlərin açılmasını təmin etmir? Görünür, qondarma ”erməni soyqırımı” məsələsində olduğu kimi, Sumqayıt hadisələrində də həqiqətlərin üzə çıxması onlara sərf etmir.

**Sumqayıt hadisələrinin şahidi, Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ”Şərq”ə deyib ki, Sumqayıt hadisələrindən 32 il ötməsinə baxmayaraq, ermənilər hələ də sovet ”KQB”-si ilə birlikdə təşkil etdikləri iğtişaşları bizim ayağımıza yazmağa çalışırlar. Ekspertin sözlərinə görə, Sumqayıt hadisələrinin ardınca Xocalı faciəsi də eyni ssenari üzrə təşkil olunmuşdu:** ”Bir sumqayıtlı olaraq hadisələrin bütün gedişatını tam təfsilatı ilə xatırlayıram. Şəhərdə iğtişaşlar və qarışıqlıqlar başlayarkən bir qrup naməlum şəxs təhsil aldığım Neft Kimya İnstitutunun Sumqayıt filialının qarşısında cəmlənmişdilər. Antropoloji quruluşları bizə bənzəməyən, lakin bizim dilimizdə orta səviyyədə danışan 40-50 adam içəri daxil olmağa cəhd edirdilər. Biz qapıda sipər çəkərək onları içəri buraxmırdıq. İğtişaşçılar institutun içərisində, guya, erməni gizləndiyini deyirdilər. Biz onları içəri buraxmayanda arxa tərəfdə dayanmış uzun dəri plaşlı bir neçə şəxsi yanlarına çağırdılar. Maşından iki nağara çıxartdılar və insanları cuşa gətirən ritmlər çaldılar. Yenə onları içəri buraxmayanda iri daşlarla şüşələrdən birini qırdılar. Bu zamana kimi arxa qapıdan institutda qalmış bir neçə erməni qızı yola salmışdıq, beləliklə, bu təxribat alınmadı. Tam əminliklə deyirəm ki, yük maşınlarında xüsusi olaraq gətirilmiş həmin qrup ”KQB”-nin təxribatçıları idi. Onların arasında erməni millətindən olan cinayətkar ünsürlər vardı. Sonra İnstitutun fəallarından olan İmamverdi sovet Azərbaycanı bayrağını əlinə götürüb dəstənin qarşısına keçdi. Biz təxribatçı qrupu oradan uzaqlaşdırdıq. Hadisələr artıq ”Avtovağzal” deyilən ərazidə ordu ilə toqquşma müstəvisində davam etdi”.

**V.Əfəndiyev vurğulayıb ki, onların niyyəti partiya komitəsi binasının qarşısına gedib dövlətdən dəstək istəmək idi:** ”Lakin hərbçilər buna imkan vermədilər. Əksinə, təxribatçıların şəhərə yayılmasına şərait yaratdılar. Bu hadisələr hər birimizin gözü qarşısında baş vermişdi. Hərbiçilərlə toqquşma olan ərazilərə xeyli sayda çay daşları və şüşə qırıntıları gətirilmişdi. Sizi əmin edirəm ki, Sumqayıt əhalisi bu hadisələrdə ermənilərə hər cür yardım edirdi. Qonşular erməni sakinləri öz evlərində gizlədirdilər. O zaman Sumqayıtı tərk edən çox sayda erməni bu faktı təsdiqləyib. Ona görə erməni tərəfinin bu iddiası saxtakarlıq və həyasızlıqdır. Çox təəssüf ki, Rusiya dövlət başçısı da dəfələrlə münaqişənin Sumqayıt hadisələrindən sonra başladığını vurğulayıb. Lakin tarixi faktlar var. İlk münaqişə Ermənistanın Quqark rayonunda soydaşlarımızın vəhşicəsinə qətlə yetirilməsi ilə başlayıb”.

**İsmayıl Qocayev**

# Berlində sülh danışıqları baş tutdu

## Berbok: “Azərbaycan və Ermənistan keçmişi arxada qoymaq üçün cəsarətli addımlar atıb”



**Azərbaycan və Ermənistan XİN rəhbərləri Ceyhun Bayramov və Ararat Mirzoyan Berlində görüşüblər. Tərəflər sülh müqaviləsi layihəsi ətrafında müzakirələr aparıblar. Nazirlərin görüşü Almaniya XİN-in Borsiq villasında keçirilib.**

Danışıqlardan sonra görüş Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramov, Ermənistan XİN rəhbəri Ararat Mirzoyan və Almaniya XİN rəhbəri Annalena Berbok arasında üçtərəfli formatda davam edib.

“Azərbaycan və Ermənistan keçmişi arxada qoymaq və irəliləmək üçün cəsarətli addımlar atıb”.

Bunu Almaniya xarici işlər naziri Annalena Berbok Azərbaycan və Ermənistandan olan həmkarları ilə üçtərəfli görüşdən əvvəl deyib.

O bildirib ki, indi dayanıqlı sülhün əldə olunması imkanı var. Hər iki tərəf artıq keçmişi arxada qoymaq üçün cəsarətli addımlar atıb.

”Almaniya Ermənistan və Azərbaycan arasında həll edilməmiş məsələlərin sülh yolu ilə və güc tətbiq edilmədən həllini təmin etməyə sadiqdir. Bu məqsədlə iki ölkə arasında sülh danışıqlarının tez bir zamanda yekunlaşması vacibdir”, - xarici işlər naziri bildirib. (apa)

Berbok deyib ki, ”irəli getmək üçün əsl öhdəlik və qətiyyət lazımdır. Qafqaz dövlətləri arasında anlaşma hər iki ölkədən kənarda da müsbət təsirlər göstərəcək və Cənubi Qafqazda daha yaxşı gələcəyə və çiçəklənməyə yol açacaq”. Xanım Berbok qeyd edib ki, iki həftə əvvəl Münxen Təhlükəsizlik Konfransı çərçivəsində başlayan ”məhsuldar müzakirələr” davam etdirilməlidir.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə deyib ki, Fransa açıq-aşkar Ermənistanın tərəfini tutur və İəvanın mövqeyindən çıxış edir. Partiya rəhbərinin sözlərinə görə, bununla kifayətlənməyən Paris Bakı əleyhinə qərəzli addımlar atır:** ”Hətta daha da irəliyə gedərək Ermənistanı silahlandırır, onu təxribatlar törətməyə təhrik edir. Uzun müddət Avropa məkanında tərəflər arasında təmasların olmamasının əsas günahkarı məhz Fransa Prezidenti Makron idi. Fransa rəhbərinin təxribatçı fəaliyyəti sayəsində tərəflər arasındakı danışıqlar prosesində fasilə yarandı və şərti sərhədlərdə təxribatlar oldu. Ümumiyyətlə, Böyük Britaniyanın Avropa Birliyindən çıxmasından sonra Almaniya və Fransa arasında birliyə liderlik uğrunda ciddi rəqabət başladı. Bu rəqabət bir çox sferalarda özünü göstərir. Münhendə Almaniya kanslerinin görüş təşəbbüsü ilə çıxış etməsini də bu çərçivədə dəyərləndirmək olar. Görüş məkanı olaraq Berlinin seçilməsi liderlərin Münhen görüşünün davamı kimi görülə bilər. İstənilən halda Avropa məkanında növbəti görüşün baş tutması önəmlidir”.

**A.Əlizadə qeyd edib ki, Almaniya vasitəçi olaraq prosesdə iştirak etmir, sadəcə, müzakirələr üçün məkan təklif edir:** ”Azərbaycanın mövqeyi ondan ibarətdir ki, tərəflər vasitəçisiz görüşlərə üstünlük verməlidir. Çünki artıq hamıya aydındır ki, vasitəçilər öz maraqlarından çıxış edirlər. Nəticədə problemləri çözmək mümkün olmur. İkitərəfli təmaslarla nəyəsə nail olmaq mümkündür. Rəsmi Bakının qalib tərəf olaraq təklifləri, irəli sürdüyü 5 əsas baza prinsipləri ortadadır. Razılaşmalar da məhz həmin prinsiplər əsasında olmalıdır. İrəvan prosesdə irəliləyiş olmağını həqiqətən istəyirsə, tələbləri qəbul etməli və öhdəliyini yerinə yetirməlidir. Azərbaycan öz problemlərini faktiki olaraq həll edib. Sülhdə Ermənistan daha çox maraqlı olmalıdır”.

**İsmayıl Qocayev**

# Rəsulzadənin məzarının abadlaşdırılmasına başlanılıb

## İşlər Türkiyənin müvafiq dövlət qurumları ilə koordinasiyalı şəkildə həyata keçirilir




**Məhəmməd Əmin Rəsulzadənin Ankaradakı məzarı abadlaşdırılır.**

**”Şərq” xəbər verir ki, bu barədə Azərbaycanın Türkiyədəki səfirliyi məlumat yayıb.**

Bildirilib ki, Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyinin qeyd olunması ilə bağlı sərəncam imzalayıb.

”Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi dövlət başçısının sərəncamını əsas tutaraq, görkəmli ictimai-siyasi xadimin Ankara şəhərindəki Cəbəci Əsri məzarlığında yerləşən məzarının abadlaşdırılmasına başlayıb.

Həyata keçirilən fəaliyyət Türkiyənin müvafiq dövlət qurumları ilə koordinasiyalı şəkildə həyata keçirilir və M.Ə.Rəsulzadənin vəfat ildönümü olan 6 mart tarixinə qədər yekunlaşması nəzərdə tutulur”.

# Növbəti sülh danışıqları birbaşa sərhəddə olsun!

## Elmar Məmmədyarov: “Berlin, Vaşinqton, Brüssel və Moskva görüşünün mənası yoxdur”



**Almaniyanın paytaxtı Berlin şəhərində Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında görüş keçirilir.**

Azərbaycan nümayəndə heyətinin tərkibində Ceyhun Bayramovla yanaşı, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov, ölkəmizin Almaniyadakı səfiri Nəsimi Ağayev, XİN sözçüsü Ayxan Hacızadə və başqaları var.

Ermənistan nümayəndə heyətinin tərkibində isə Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyan, ölkənin Almaniyadakı səfiri Viktor Enqibaryan və başqaları iştirak edir.

**Görüşü ”Şərq”ə dəyərləndirən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, böyük nəticələrin olacağını gözləmir:**

”Görüş Almaniyanın vasitəçiliyi ilə olsa belə, tərəflərin vasitəçilərsiz danışıqlar aparması müsbət haldır. Xarici işlər nazirləri növbəti görüşün baş tutması ilə əlaqədar razılığa gəlib-gəlmədikləri ilə bağlı mətbuata açıqlama verəcəklər. Arzu edərdik ki, növbəti dəfə görüş birbaşa sərhəddə həyata keçirilsin. Yəni hansısa üçüncü tərəfin nümayəndəsi iştirak etməsin. Berlinə, Vaşinqtona, Brüsselə və Moskvaya gedərək görüş təşkil etmənin mənası yoxdur. Çünki üçüncü tərəfin görüşdə öz milli maraqları mövcuddur və cədvəllərinə uyğun hərəkət edirlər. Ona görə Azərbaycan və Ermənistan nümayəndələrinin birbaşa şəkildə sərhəddə görüşməsi daha məqsədəuyğundur”.

**E.Məmmədyarov onu da vurğulayıb ki, ritorika sülh sazişi ilə bağlı məqamın yetişmədiyini göstərir:** ”Əvvəllər görüş zamanı Madrid prinsipləri müzakirə edilirdi. Ermənistan və Azərbaycanın təqdim etdiyi təklifi müqayisə edirdilər. Daha sonra təklifləri ümumi şəkildə hər iki tərəfə təqdim etməyə çalışırdılar. Artıq 44 günlük müharibədən sonra vəziyyət dəyişib və Qarabağ Azərbaycanın tərkibindədir. Ermənistanda Azərbaycanın hər cür sülh sazişinə razı olma fikri formalaşmamalıdır. Neçə ildir sülh sazişi olmadan yaşayırıq, bundan sonra da belə davam edə bilərik”.

**Şahanə Ziyad**



# Erməni tarix dərsliyindəki faktlar təsadüfi hal deyil

## Qarabağın Azərbaycanın tərkib hissəsi olaraq Ermənistanın tədris kitablarına salınması yaxşı nümunədir

**Ermənistanda tədris edilən 7-ci sinif tarix kitabında Qarabağın Azərbaycan ərazisi kimi göstərilməsi rezonans doğurub.**

**7-ci sinif şagirdlərinin valideynləri Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyini məhkəməyə verir.**

Axar.az xəbər verir ki, bu barədə Vəkillər Palatasının keçmiş prezidenti Ara Zöhrabyan məlumat yayıb. Nazirliyə qarşı iddianın səbəbi 7-ci sinif dərsliklərində "Artsax"ın Azərbaycanın tərkib hissəsi kimi təqdim olunmasıdır.

İddiaçılar nazirin əmrinin qüvvədən düşmüş hesab edilməsini tələb edir.

Qeyd edək ki, bundan əvvəl İrəvanda bu məsələ ilə bağlı etiraz aksiyaları keçirilib və tarixçilər məhkəməyə müraciət etmək niyyətində olduqlarını bəyan ediblər.

**AMEA-nın əməkdaşı, türkoloq-alim Faiq Ələkbərli isə "Şərq"ə açıqlamasında deyib ki, Qarabağın Azərbaycanın tərkib hissəsi olaraq erməni tədris kitablarına salınması yaxşı nümunədir:** "Bu, tədricən davamlı olacaq. Yeni gələcək perspektivdə Ermənistanın qonşu ölkələrə ərazi iddiası məsələsinin, konstitusiya və müstəqillik bəyannaməsindən çıxarılmasının gündəmə gətiriləcəyini güman edirəm. Bu, erməni ictimai rəyində reallıqların qəbul olunması baxımından bir başlanğıcdır. Ermənistanın Baş naziri Nikol Paşinyan bir neçə dəfə Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf edib. Qarabağdakı keçmiş separatçıların Ermənistana aidiyyəti olmadığını da dəfələrlə qeyd edib. Yəni 7-ci sinif dərsliyində qeyd olunan faktları təsadüfi hal hesab etmirəm. Çox güman ki, Ermənistanın siyasi rəhbərliyi baş tutan danışıqların məntiqi ardıcıllığı olaraq Ermənistanın gələcək inkişafının Azərbaycanın ərazi bütövlüyünün tanınmasından keçdiyinin fərqinə varmağa başlayıb".

**Türkoloqun fikrincə, Ermənistanın orta məktəb dərsliklərində Qarabağın Azərbaycan ərazisi kimi göstərilməsinin mahiyyətində birmənalı olaraq Ermənistanın regional iqtisadi layihələrdə iştirak cəhdləri dayanır:** "Paşinyan hökuməti region dövlətləri ilə ticari əlaqələri bərpa etmək istəyində səmimi olduğunu göstərmək üçün belə bir mövqe sərgiləyib. Artıq Qarabağ məsələsi Ermənistan üçün aktual deyil, onlar çoxdan uzun illər işğal altında saxladıqları bu əraziləri itirdiklərinin fərqinə varıblar. Nikol Paşinyan üçün vacib məsələ Ermənistanın dövlət sərhədlərinin müdafiəsi və regiondakı iqtisadi layihələrdə iştirakının təmin olunmasıdır. Bilirsiniz ki, Ermənistan dövlətinin faktiki ərazisi 30 min kvadrat kilometrdir və bunun da 20 min kvadrat kilometri mübahisəlidir. Azərbaycanın dövlət rəhbərliyi səviyyəsində İrəvan, Göyçə, Zəngəzurun qədim Azərbaycan torpaqları olması ilə bağlı səsləndirdiyi fikirlər Paşinyanı narahat edir. Hazırda gündəmdə olan Zəngəzur koridoru məsələsi isə onun qorxularını daha da artırır. Ona görə də dərs kitablarında Azərbaycanın ərazi bütövlüyünü tanımaqla bir növ Azərbaycana və dünya ictimaiyyətinə mesaj ötürür ki, Ermənistanın Qarabağla bağlı heç bir iddiası yoxdur və indi onun üçün mühüm faktor faktiki dövlət sərhədlərinin Azərbaycan tərəfindən tanınmasıdır".

Şəymən



# Su ehtiyatlarımız getdikcə azalır

## Bizim iqlim dəyişmələrinə cavab verməyən sovetdənqalma köhnə su infrastrukturumuz var, dəyişməsək, işimiz çətin olacaq

**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya və Aqrar siyasət komitələrinin birgə təşkilatçılığı ilə keçirilən "Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar" mövzusunda dinləmədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov bildirib ki, dünyada baş verən qlobal iqlim dəyişikliklərinin su ehtiyatlarına mənfi təsiri getdikcə artmaqdadır:**

"Azərbaycan su ehtiyatları olduqca məhdud ölkədir. 30 milyard kubmetr yerüstü su ehtiyatımız var. Son baş verən iqlim dəyişikliklərindən sonra bu ehtiyatlarımız kəskin azalıb, 2022-ci ildə cəmi 17 milyard təşkil edib. Bunun da 4,8 milyard kubmetri daxildə formalaşıb, qalanı isə qonşu ölkələrdən daxil olub. Yeni su mənbələrinin yaradılması tələb olunur. Tullantı su təchizatlarının yaxşılaşdırılması bizim siyasətin prioritet istiqamətlərindəndir".



"Hesab edirəm ki, iştirakçı qərarlara əsaslanan yeniliklər su ehtiyatlarının idarə edilməsində olmalıdır"

Dinləmələrdə çıxış edən ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva isə bildirib ki, su ehtiyatlarının səmərəli istifadəsinə dair milli strategiya layihəsi hazırlanıb: "Alternativ su mənbələrindən istifadə üçün 481 yaşayış məntəqəsini əhatə edən 460 içməli su istehsal edən pilot layihə tətbiq edilib. İqlim dəyişmələri ilə bağlı su problemi bəşəriyyətin qarşılaşdığı ən böyük problem olacaq. Son 10 ilə baxanda bu il Böyük və Kiçik Qafqaz dağlarının suları ilə bağlı yaxşı göstəricilərlə üzləşirik. Böyük Qafqazın çaylarında sululuq normadan 88 faiz çoxdur. Keçən illə müqayisədə sululuq 38 faiz bəndi yüksəkdir. Kiçik Qafqaz çaylarında isə sululuq norma göstəricilərindən 35 faiz bəndi artıqdır. Bunlar yaxşı göstəricilərdir, amma bizi sakitləşdirməli deyil".

Dinləmələrdə parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov isə suyun keyfiyyəti barədə danışıb və bildirib ki, Azərbaycan əhalisinin təsərrüfat-içməli su təchizatına nəzarət məqsədilə bilavasitə respublikanın 61 şəhər və rayonlarının su təchizatı sistemlərindən götürülmüş və Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin laboratoriyasında 2023-cü ildə müayinə edilmiş 763 su nümunəsinin 0,7 faizi (2022-ci ildə 1,2 faizi) fiziki-kimyəvi göstəricilərinə, 3,9 faizi (2022-ci ildə 7,9 faizi) bakterioloji göstəricilərinə görə dövlət standartlarının tələblərinə cavab verməyib.

"Azərsu" ASC Bakıdakı 94 mərkəzi və məhəllədaxili su anbarının yuyulub zərərsizləşdirilməsini təmin edib, bu tədbirlərdən sonra laboratoriya müayinəsi üçün götürülmüş 112 su nümunəsindən 9,8 faizinin bakterioloji göstəriciləri qeyri-kafi olub, fiziki-kimyəvi göstəriciləri isə norma daxilində olub. Dövlət standartının tələblərinə uyğun gəlməyən nəticələr üzrə müvafiq tədbirlər görülüb, təkrar müayinələr aparılıb.

Respublikada yerli su təchizatı mənbələri üzərində nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə respublikanın 16 rayonunda yerləşən 460 su mənbəyi laborator tədqiqat üsulunun tətbiqi ilə müayinə olunub. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin laboratoriyasında müayinə olunmuş 529 nümunədən 23,2 faizi orqanoleptik, 11,8 faizi kimyəvi, 40,3 faizi bakterioloji göstəricilərinə görə dövlət standartlarının tələblərinə cavab verməyib. O cümlədən, Yevlax şəhərinin içməli su təchizatı ilə bağlı aparılmış müayinələr zamanı bir sıra nöqsan və çatışmazlıqlar aşkar edilib.

Maraqlıdır, rəsmilərdən biri su ehtiyatlarımızın məhdud, digəri isə bol olduğunu deyir. Hansı haqlıdır?

**"Sağlam həyata doğru" İctimai Birliyinin üzvü, ekoloq Rövşən Abbasov "Şərq"ə açıqlamasında qeyd etdi ki, bəli, su ehtiyatlarımız getdikcə azalır:**

- Həm ölkə daxilində, həm də xaricdən gələn su sürətlə azalmaqdadır. Bu həm daxildə, həm də qonşu ölkələrdə su ehtiyatlarına tələbatın artması ilə bağlıdır. Çünki bizim su ehtiyatlarımızın 70 faizi xarici ölkələr ərazisində formalaşır. İqlim dəyişmələri var, amma bizim onunla ayaqlaşmayan, iqlim dəyişmələrinə cavab verməyən sovetdənqalma köhnə su infrastrukturu var. Qalmışıq ikisinin arasında. Hesab edirəm ki, su ehtiyatlarının idarə edilməsində yeniliklər olmalıdır. İştirakçı qərarlara əsaslanan yeniliklər. Su Ehtiyatları Agentliyinin yaradılmasını alqışlayıraq. Amma bu təşkilatın strukturunda çay-hövzə təşkilatları yaradılmalıdır. Və hər bir hövzədə inventarlaşma aparılmalıdır. Bu təşkilatlar çay və hövzələrdə spesifik məlumatları toplayır, təhlil edir, nəticələrə uyğun qərarlar verir. Bu cür yanaşmalarda məqsəd su ehtiyatlarından inteqrasiyalı istifadəni təmin etməkdir. Belə olmasa, işimiz çətin olacaq. Biz hər hansı hövzə üzrə maraqlı tərəfləri müəyyən etməliyik. Bilinməlidir, hövzələrdən su nə üçün, hansı məqsədlə götürülür. Sonra əsas çirkləndiriciləri müəyyən etməliyik. Bundan sonra həmin məlumatlar bazası əsasında hər bir çay üçün idarəetmə sxemi tərtib edilməlidir. Yalnız bu cür yanaşmalar bizi iqlim dəyişmələrinin mənfi fəsadlarından qoruyacaq.

Məlahət Rzayeva

# Mümkün deyil

## Kollektiv Qərb Ukraynaya ordu göndərməyəcək



NATO içərisində bəzi ölkələr Rusiya ilə münasibətlərini korlamaq istəmir

**Fransa Prezidenti Emmanuel Makron Ukraynaya Avropa qoşunlarının göndərilməsini istisna etməyib.**

Bu barədə Fransa lideri Parisdə Ukrayna məsələsinin müzakirəsi üçün 20-yə yaxın ölkə liderinin toplantısından sonra mediaya açıqlamasında deyib.

Buna baxmayaraq, o, hazırkı mərhələdə bu məsələdə konsensus olmadığını da bildirib: "Hazırda Ukraynaya ordu göndərmək üçün konsensus yoxdur. Amma heç nəyi istisna etmək olmaz. Rusiyanın qalib gəlməsinin qarşısını almaq üçün əlimizdən gələni edəcəyik".

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə bildirib ki, Kollektiv Qərbin Ukraynaya ordu göndərməklə bağlı hələ real addımları yoxdur:** "Avropa İttifaqı Ukraynaya yardımla bağlı konkret razılığa gələ bilməyib. Əlli milyard avroya qədər yardım edilməsi gözlənilirdi, amma bu, real olaraq baş tutmayıb. Ukraynaya indiki vəziyyətdə həmin kömək edilməyibsə, deməli, Avropanın NATO içərisindən ordu göndərmək cəhdləri inandırıcı görünmür. Ukraynaya yardım göndərməklə bağlı təkcə Fransanın deyil, digər ölkələrin də razılığı olmalıdır. NATO daxilində son sözü aparıcı fiqur sayılan tərəflər - Amerika Birləşmiş Ştatları və Türkiyə deyir. Eyni zamanda qeyd etmək lazımdır ki, NATO içərisində bəzi ölkələr Rusiya ilə münasibətlərini korlamaq istəmir".

*Qeyd edək ki, ötən gün Çexiya və Slovakiya Ukraynaya heç bir halda ordu göndərməyəcəklərini elan etmişdilər.*

Şahanə Ziyad

# Rey Kərimoğlu bərpa mərkəzinə yerləşdirildi

**Yüksək təzyiqdən əziyyət çəkən tanınmış jurnalist və Qarabağ qazisi Rey Kərimoğlu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Bakı Reabilitasiya Mərkəzinə yerləşdirilib.**



Bu barədə Rey Kərimoğlu "Şərq"ə özü məlumat verib.

Qarabağ qazisi bildirib ki, o, bir müddət bu bərpa mərkəzində müalicəsini davam etdirəcək.

Xatırladaq ki, fevralın 22-dən yüksək təzyiq və burundan qan açılması ilə Xətai Tibb Mərkəzinə çatdırılan tanınmış jurnalist Rey Kərimoğlu fevralın 27-də həmin xəstəxanadan çıxıb.

*Qeyd edək ki, Qarabağ qazisinin səhhəti hələ də normallaşmayıb.*

Aygün

**Fransa Prezidenti Emmanuel Makronun Qərb dövlətlərinin hərbi qüvvələrinin Ukraynaya göndərilməsinin mümkünlüyü barədə açıqlaması beynəlxalq aləmdə ən çox müzakirə olunan mövzulardandır.**



# Makronun içi boş sözləri ilə Rusiya geri çəkilməyəcək

## Avropa dövlətləri də müharibədə iştirak etmək istəmirlərə

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib ki, Makronun Qərb quru qüvvələrinin Ukraynaya göndərilməsi ilə bağlı bəyanatı Fransa üçün biabırçılıqdır: "Kimi və hara göndərəcək? Zelenskinin bunkerini qorumağa? Əlbəttə ki, Fransa üçün belə ayıbdır. O özünü dövlət başçısı, siyasətçi kimi ifşa etdi. Bununla da kifayətlənmədi. Bu, antihitler koalisiyasının sıralarında bugünkü Fransanın BMT Təhlükəsizlik Şurasında yer almasını təmin edən insanlara atəş açmaqdır". Avropa mətbuatı yazır ki, Fransanın Ukraynaya Qərb ölkələrinin hərbçilərini göndərmək təklifi avropalı müttəfiqləri ilə bir neçə həftə müzakirə edilib. Lakin əksəriyyət bunun əleyhinə olduğunu söyləyib. Mərkəzi Avropa ölkələrindən iki mənbə Qərbin Ukraynaya öz ordusunu göndərə biləcəyinə şübhə ilə yanaşır. Onlar hesab edirlər ki, Rusiya ilə birbaşa hərbi qarşıdurma qorxusu həddən artıq böyükdür və bəzi Qərb ölkələrinin hərbi resursları çox məhduddur.

**Politoloq Elxan Şahinoğlu "Şərq"ə deyib ki, Makrondan başqa heç bir Qərb ölkəsinin lideri və ya müdafiə naziri bu barədə açıqlama verməyib. Görünür, Makron bu yolla Rusiya ordusunun Ukraynada irəliləməsindən narahatlığını ortaya qoyub:** "Makron bunun qarşısını almaq üçün məlum ifadəni işlədib ki, Kreml narahat olsun. Ancaq məsələ burasındadır ki, içi boş sözlərlə Rusiya geri çəkilməyəcək. Tam əksinə, Makronun dedikləri reallaşmasa, rusiyalı rəsmilər "nə oldu, bəs üstümüzə gəlirdiz" kimi kinayəli cümlələr işlədəcəklər. NATO ölkələri Rusiya ilə Ukrayna ərazisində savaşmaq istəmirlər, hətta Ağ Ev və Pentaqon Makronun açıqlamasını dəstəkləməyib. Avropa dövlətləri də müharibədə iştirak etmək istəmirlər. Ukraynaya silah və hərbi texnika göndərməklə, vətəndaşlarını ölümə göndərmək arasında böyük fərq var. Fransanın özündə də Makronun açıqlaması tənqid olunub, fransalı gənclər Ukraynada ölmək istəmirlər.

Ukraynaya hərbi qüvvələrini göndərmək istəyən Makron eyni istəyi Ermənistan üçün də səsləndirə bilər. Ancaq Fransa hərbçilərini Ermənistanda da rahat həyat gözləməyəcək. Ermənistanın Baş naziri Nikol Paşinyan hazırkı siyasətinə görə ikiqat - Rusiya və Azərbaycanın təzyiqi altındadır, üstəgəl, çox sayda fransalı hərbçini ölkəsinə gətirmək istəsə, bölgədə vəziyyət daha da gərginləşəcək və sülh sazişi imzalamaq imkanları minimuma enəcək".

İsmayıl

# Fransa kimi ölkələr regiona soxulmaq istəyirlər

## Məqsədləri bölgədə çaxnaşma yaratmaqdır, Azərbaycan buna qarşı mübarizə aparır və aparacaq



**Fransa inadla Cənubi Qafqazda regional sabitliyi pozmağa davam edir. Rəsmi Paris Azərbaycanın dəfələrlə etdiyi çağırışlara məhəl qoymayaraq, Ermənistanda revanşist əhval-ruhiyyəni qızışdırmağa, bu ölkəyə hərbi dəstək verməyə və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını əngəlləməyə çalışır.**

Fransanın verdiyi arxayınlıq, dəstək vədi artıq Ermənistanın hərbi-siyasi rəhbərliyinin çıxışlarında da özünü büruzə verir. Ermənistan Baş naziri Nikol Paşinyan və müdafiə naziri Suren Papikyan Fransanın hərbi və diplomatik dəstəyini qabardırlar. Çünki Fransa və başqa ölkələr Ermənistanı silahlandırma yarışına giriblər. Ermənistan Fransadan 3 ədəd GM 200 radar sistemi, 50 ədəd "Bastion" tipli zirehli texnika satın alıb və "Mistral" qısa mənzilli hava hücumundan müdafiə sistemlərinin gələcəkdə alınmasına dair müqavilə imzalayıb. Amma bu, hərbi əməkdaşlığın yalnız görünən üzüdür. Fransa 44 günlük müharibədən sonra dərin böhran içində olan Ermənistan ordusunda islahatların aparılmasını vəd verib. Fransa nəinki Ermənistana silah satışı həyata keçirir, islahat vədi verir, artıq birgə silah istehsalını da müzakirə edir. Mətbuatda Fransanın "Safran Group" şirkətinin Ermənistanla birgə silah və komponentlərinin istehsalına başlamağı planlaşdırması xəbəri yayılıb. Şirkətin aviasiya komponentləri, görmə cihazları və pilotsuz uçuş aparatları (PUA) istehsal etdiyini nəzərə aldıqda, əməkdaşlığın hansı istiqamətlərdə gedəcəyi aydın olur. Fransanın Cənubi Qafqaza nüfuz etməsi üçün istifadə olunan əsas element isə Azərbaycan-Ermənistan şərti sərhədinə yerləşdirilən Avropa İttifaqının monitorinq missiyasıdır. 2023-cü ilin fevralında Ermənistana yerləşdirilən missiya Azərbaycanla sərhəddə sabitlik və təhlükəsizlik şüarı altında fəaliyyətini genişləndirir. Avropa İttifaqı bu ilin yanvarında missiya üzvlərinin sayının 138 nəfərdən 209-a qədər artırılmasına qərar verib. Azərbaycanla Ermənistan arasında sərhəddə sabitlik möhkəmləndikcə, sülh danışıqları davam etdikcə, missiyanın kontingentinin genişlənməsi qəribədir. Missiyanın tərkibi də şəffaf deyil. Buraya Fransa kəşfiyyatına xidmət edən, güc strukturlarında xidmət edən şəxslər daxildir. Bu isə Aİ Monitorinq Missiyasının mülki xarakter daşıması barədə fikirləri təkzib edir. Fransa Milli Jandarm İdarəsinin briqada generalı Uilyam De Meyerin bu yaxınlarda Azərbaycan-Ermənistan şərti sərhədinə baş çəkməsi, Azərbaycan ərazilərini binoklla müşahidə etməsi də Fransanın mülki missiyadan hərbi və kəşfiyyat məqsədilə istifadə etməsinə dəlalət edir. Artıq Fransa öz niyyətini gizlətməyə belə cəhd etmir. Ötən ilin dekabrında Fransanın casus şəbəkəsinin Azərbaycanda ifşa olunması faktını da yada salsaq, regionda Azərbaycana qarşı casus hücumlarının təşkil edildiyini söyləmək olar. Göründüyü kimi, Fransa Cənubi Qafqazda gərginlik ocağının qalmasında, regionun hərbiləşməsində, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi ilə bağlı qeyri-müəyyənliyin qalmasında maraqlıdır. Ermənistan hökumətinin qeyri-ardıcıl, xaotik və iradəsiz siyasəti də Fransaya bu siyasətini müəyyən dərəcədə həyata keçirməyə imkan verir. Amma istənilən halda, Azərbaycanın Fransanın regiondakı nüfuzunu neytrallaşdırmağa, regionda status-kvonun və güc balansının süni şəkildə dəyişdirilməsinə imkan verməmək üçün kifayət qədər siyasi, diplomatik və hərbi gücü var.

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Şərq"ə deyib ki, Azərbaycan Cənubi Qafqaz regionunda elə bir siyasət aparır ki, bu siyasət Qərbin "ümumbəşəri dəyərlər" adı altında öz məkrli siyasətini icra etməsini ifşa edir, onların qərəzli əməllərini ört-basdır edən pərdəni cırıb atır. Komitə sədri vurğulayıb ki, cənab Prezidentin andiçmə mərasimində "biz dünyada ləkə kimi qalan neokolonial siyasətə qarşı mübarizəmizi davam etdirəcəyik" ifadəsini işlətməsi təsadüfi deyildi:**

"Dövlət başçısı qeyd etdi ki, heç kim düşünməsin ki, biz bu məsələdə israrlı deyilik. Əksinə, dünyanın mütərəqqi qüvvələri ilə birlikdə bu biabırçılığa qarşı öz mövqeyimizi açıq şəkildə bildirəcəyik. Bu yalnız Fransaya aid deyildi, ümumiyyətlə, dünyaya mesaj idi. Ancaq belə bir misal var. Deyirlər ki, "oğru dərhal söhbətin kimdən getdiyini anlayır". Fransanın hazırda qərəzli və kəskin mövqedə israr etməsi Azərbaycanın apardığı siyasətin nə dərəcədə doğru olduğunu sübut edir. Biz Fransanın siyasətini ifşa etdikcə, onlar öz mövqelərindən çəkinmirlər. Amma bu işfaetmə siyasəti davam etdiriləcək. Əslində, bunu etməyə məcburuq. Çünki Fransa kimi ölkələr regiona soxulmaq istəyirlər. Məqsədləri bölgədə çaxnaşma yaratmaqdır. Azərbaycan buna qarşı mübarizə aparır və aparacaq".

**Parlamentari bəyan edib ki, Münhen Təhlükəsizlik Konfransında cənab Prezidentlə görüşmək istəyənlərin növbəyə durmasını gördük və buna təəccüblənmək lazım deyil:**

"Getdikcə Avropa daxilində də başa düşürlər ki, Fransanın apardığı siyasət destruktivdir. Digər ölkələrlə yanaşı, Macarıstan da Avropa Şurasına məktub göndərib və Azərbaycan nümayəndə heyətinin pozulmuş hüquqlarının bərpasını istəyib. Belə müraciətlər çoxalacaq. Xatırladım ki, Azərbaycan bu il COP29-a, bir neçə il sonra BMT-nin ən nüfuzlu beynəlxalq konfransına ev sahibliyi edəcək. Azərbaycan Asiya Parlament Assambleyasına sədrlik edir. Qoşulmama Hərəkatına böyük töhfələr verir. Bunlar hamısı dünyanın dəyişdiyindən, yeni reallıqların və təhlükəsizlik sisteminin formalaşmasından xəbər verir. Təəssüflər olsun ki, bu yeni dünyanın içərisində elə qüvvələr var ki, Azərbaycanın yaratdığı reallığı qəbul etmək istəmirlər. Onların arasında əsas yerləri tutanlardan biri də Fransanın Makron hakimiyyətidir. Fransada hakimiyyət dəyişəcək və görəcəksiniz ki, ölkə daxilindəki hansısa qüvvələr Makronun hiyləgər siyasətinə qarşı çıxmağa başlayacaqlar".

**İsmayıl Qocayev**

# Zelenskinin İrəvana səfər ehtimalı çox azdır

## Qərbin tələblərinə baxmayaraq, bu səfər Ukrayna və Ermənistan üçün risklidir



**Ermənistan Baş naziri Nikol Paşinyan Ukrayna Prezidenti Volodimir Zelenskinin İrəvana səfər ehtimalını müzakirə edib. Paşinyan Zelenskinin səfəri ilə bağlı razılaşmanın Münhendə əldə edildiyini bildirib.**

Baş nazir vurğulayıb ki, Qərb Zelenskinin İrəvana səfərini təklif etsə də, bir neçə sutka düşündükdən sonra razılaşıb və cavab verib. Deyib ki, əgər bu, regional səfər olacaqsa, Zelenskini Ermənistanda qəbul etməyə hazırdırlar, amma bir şərtlə - Zelenski Azərbaycana da səfər etsin. Erməni ekspertlərin fikrincə, ümumi maraqlar kontekstində Zelenskinin Azərbaycana səfəri xoş görülə bilər, amma Ermənistana müəyyən təsirləri olacaq. Düzdür, Paşinyan açıq şəkildə bildirir ki, Ermənistanın Avropa istiqamətində hərəkət etməkdən başqa yolu yoxdur və digər strateji tərəfdaşlar da bunu ağrılı şəkildə qəbul edəcəklər. Beynəlxalq məsələlər üzrə erməni ekspert Ara Manuçaryan Zelenskinin İrəvana gələcəyinə əmin olmadığını deyib və bildirib ki, elə olarsa, Ermənistan daha böyük təhlükə ilə üz-üzə qalacaq: "Ermənistan hakimiyyəti Zelenskinin təhlükəsizliyinə zəmanət verir, Putinin isə yox. Hakimiyyət Roma Əsasnaməsinin ratifikasiyası ilə bağlı Putinə zəmanət verməyə hazır olub-olmadığını belə dəqiqləşdirmir. Kreml sözçüsü bununla bağlı bir neçə dəfə İrəvandan aydınlıq tələb edib".

> **"Bu addım Rusiyanı daha çox qəzəbləndirməklə yanaşı, həm də Kiyev öz tərəfdarlarını, məsələn, Azərbaycanı itirə bilər"**

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Zelenski və Paşinyan Qərbin hakimiyyətə gətirdiyi və dəstəklədiyi liderlərdir. Ekspert vurğulayıb ki, hər iki dövlət başçısının Qərbdəki patronları eynidir:**

"Zelenskiyə təlimat veriblər ki, indi İrəvana getmək lazımdır. Paşinyanın indiki halda narahatlığı başadüşüləndir. Rusiyanın hiddətindən, qərəzindən ehtiyatlanan Paşinyan Ermənistanın ərazi bütövlüyünü düşündüyü üçün Qərbin qarşısında Zelenski ilə bağlı şərt irəli sürüb. Baş nazir hesab edir ki, Zelenski İrəvanla yanaşı, Bakıda da olarsa, bu, regional səfər sayılar. Təbii ki, burada rəsmi Bakının mövqeyi, yəni bizim maraqlarımız önəmlidir. Əgər Zelenski Paşinyanın şərti ilə Bakıya gələcəksə, heç gəlməsin, lazım deyil. Ancaq Zelenskinin İrəvana səfər etmə ehtimalı çox azdır. Qərbin tələblərinə baxmayaraq, bu səfər Ukrayna və Ermənistan üçün risklidir. Rusiyanı daha çox qəzəbləndirməklə yanaşı, həm də Kiyev öz tərəfdarlarını, məsələn, Azərbaycanı itirə bilər. O baxımdan o qədər də real görünmür. Hazırda qlobal siyasətdə böyük oyunlar gedir. Bunu bir şahmat oyununa bənzətsək, fiqurların öz yerini müəyyənləşdirməyə çalışdığını deyə bilərik. Hansı siyasi lider daha müdrik və uzaqgörəndirsə, onun ölkəsi siyasi sferada gedən şahmat oyunundan uduşlu çıxacaq. Maksimum da olmasa, minimum uduş əldə edəcəklər. Əksinə, hərəkət edənlər isə ziyan görən tərəf olacaqlar".

**İsmayıl Qocayev**

***Su və kanalizasiya problemlərinin həlli üçün 20 milyard manat lazım olduğu açıqlanıb***

# Etiraf olundu

## Suyun keyfiyyəti ürəkaçan deyil

**Dünən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya və Aqrar siyasət komitələrinin birgə təşkilatçılığı ilə "Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar" mövzusunda dinləmələr keçirilib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov deyib ki, Azərbaycanda su borularının 50 faizinin istismar müddəti bitib.**

Onun sözlərinə görə, Kür-Bakı kəmərində boruların istismar müddəti bitdiyi üçün yüksəktəzyiqli su verilə bilmir. Sədr bildirib ki, bunun həlli yolları var: "Prioriteti müəyyənləşdirməklə problemləri həll edə biləcəyik. Beynəlxalq təşkilatlarla bu məsələlərin həlli üçün müzakirələr aparırıq". Zaur Mikayılov qeyd edib ki, su itkilərimiz 39 faizdir: "Bu, pis rəqəm deyil, amma ideal da deyil. Bizim hədəfimiz bunu 20 faizə salmaqdır. Beynəlxalq təcrübədə itkilərin normal sayılan rəqəmi 10 faizdir. Bunu 0 etmək mümkün deyil. Türkiyədə bu rəqəm 65 faizdir. Yəni bizdə rəqəm o qədər də pis deyil". Sədr diqqətə çatdırıb ki, suya münasibət dəyişməlidir: "Biz itkiləri azaltsaq, suyumuz yetərlidir. Burada şüur dəyişməlidir. "Sudan ucuz" sözü aradan götürülməlidir. Texniki su üçün şəbəkə ayrıca qurulmalıdır. Eyni şəbəkəylə həm içməli su, həm də texniki su vermək olmaz".

### "Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması həyata keçiriləcək"

Zaur Mikayılov deyib ki, 10 gün bundan qabaq duzsuzlaşdırma prosesi başlayıb, artıq 14 xarici şirkət bu prosesdə iştirak edir, satınalma işləri gedir: "Texniki su istifadə ediləndə insanla təmas etməməlidir. Virusu tapmaq o qədər də asan deyil. Biz texniki suyu bakterioloji təmizləyə bilərik. Texniki sudan yalnız sənayedə və dekorativ yaşıllaşdırmada istifadə edə bilərik". Agentlik sədri su və kanalizasiya sistemlərinin qurulmasına özəl sektorun cəlb olunmasını təklif edib: "Problemlərin həlli özəl sektorun bu sahəyə cəlbinə bağlıdır". Sədr bildirib ki, bu, dövlətin su problemləri sahəsində yükünü azalda bilər: "Özəl sektorun gətirəcəyi effektivlik də burada mühüm rol oynayacaq. Agentliyin yaradılma səbəbi bütün pərakəndəliyi aradan qaldırmaqdır. Pandemiya başlayacağını heç kim bilmirdi. Layihələr hazır idi, vəsait ayrılmışdı, amma pandemiya oldu, layihələr yarımçıq qaldı. Qarabağ işğaldan azad edildi, oranın bərpası üçün də çox böyük vəsait tələb olunur". Zaur Mikayılov diqqətə çatdırıb ki, suyun təmizliyindən tutmuş əlçatanlığına qədər bütün problemlər həll olunmalıdır: "İşin düzgün aparılması üçün Prezidentin dediyi kimi, sistem yerində olmalıdır və sistemdə düzgün insanlar çalışmalıdır. Biz bu addımları atırıq".

Sədr bildirib ki, kanalizasiya layihəsi hazır olmayan yeganə rayon Bərdədir: "O layihə də Fövqəladə Hallar Nazirliyindən keçməkdədir. Hazırda sadəcə içməli su və kanalizasiya sistemlərində davam edən layihələrin maliyyəti 2,7 milyard manatdan çoxdur. Təkcə Gəncədə layihələrin icrası 550 milyon manat tələb edir. Aran bölgələrində qapalı sistemə keçirilməsi üçün 9 milyard manata yaxın vəsait tələb olunur. Sırf indiki vəziyyəti düzəltmək üçün isə 20 milyard manat vəsait lazımdır. Biz bir şeyi etmək istəyiriksə, birinci maliyyətinə baxmalıyıq, sonra prioritetlərə bölərək problemi həll etməliyik".

### "Bir milyondan çox yeni sayğac quraşdırılıb"

Zaur Mikayılov deyib ki, suyun sayğaclaşdırılması 90 faizə çatdırılıb: "Hədəfimiz bunu 100 faizə çatdırmaqdır. Ölkə ərazisində su ehtiyatlarının səmərəli istifadəsinin təmin edilməsi məqsədilə Prezidentin sərəncamı ilə bizim Agentlik yaradılıb. Xaçınçay və digər su anbarları və kanallarının tikintisi başa çatdırılıb. Laçında 2022-ci ildə başlanmış su anbarının tikintisinin bu ilin ilk yarısında yekunlaşdırılması planlaşdırılır. Cəbrayılda Qız Qalası su anbarının və bir sıra digər obyektlərin layihələndirilməsi işləri tamamlanıb. Şuşa şəhərində içməli su sisteminin yenidən qurulması işlərinə başlanıb. Laçın şəhərinin içməli, yağış suları sistemləri yaradılıb. Xankəndi, Xocalı, Qubadlı kimi məskunlaşma olacaq ərazilərdə içməli sus sistemləri qurulur".



***Texniki suyun içməli sudan ayrılması məsələsi diqqətə alınmalıdır***

### "Qlobal iqlim dəyişmələri nəticəsində su təminatında çətinliklər yaranıb"

Kənd təsərrüfatı nazirinin müavini Sərvan Cəfərov deyib ki, qlobal iqlim dəyişmələri nəticəsində su təminatında çətinliklər yaranıb: "Kənd təsərrüfatının inkişafını susuz təsəvvür etmək mümkün deyil. Son illərdə qlobal iqlim dəyişmələrinin təsiri nəticəsində mənbələrdə su ehtiyatının azalması aqrar sahənin su təminatında bir sıra çətinliklərin əmələ gəlməsi ilə nəticələnib. Rəsmi torpaq balansına əsasən, ölkəmizin ümumi kənd təsərrüfatına yararlı torpaq sahəsi 4,78 mln. hektar (55 faiz), bunun 1.48 mln. hektarı isə suvarılan torpaqlardır. Demək olar ki, kənd təsərrüfatı məhsullarının 80-90 faizi, o cümlədən ixracyönümlü kənd təsərrüfatı məhsullarının hamısı suvarılan torpaqlarda becərilir. Su Komissiyasının tapşırıqları əsasında ölkə üzrə aqrar islahatların həyata keçirilən infrastruktur layihələri ilə uzlaşdırılması, su ehtiyatlarının mövcud vəziyyətinin dövri təhlilinin aparılması və tənzimlənməsi sahəsində operativ qərarların qəbul olunması istiqamətində Kənd Təsərrüfatı Nazirliyi ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi arasında qurumlararası koordinasiyalı fəaliyyət təşkil olunub. Eyni zamanda yerlərdə kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün suvarmanın növbəlilik əsasında təşkil edilməsi üçün mütəmadi işlər aparılır".

### "Bakıətrafı kəndlərdə kanalizasiya sistemində ciddi problem var"

Deputat Fəzail Ağamalı deyib ki, Su təsərrüfatı ilə bağlı xüsusi qanun qəbul edilməlidir və bu, bütün su təsərrüfatlarını əhatə etməlidir: "İnsanlarımızın suya qarşı münasibəti ürəkaçan deyil. Biz həm İnzibati Xətalar, həm də Cinayət Məcəlləsində bununla bağlı cərimələr və cəzalar müəyyənləşdirək. Suya qarşı münasibət dəyişməlidir. Daxili çayların, yağış sularının anbarlara yığılaraq istifadəsi çox yaxşı haldır. Bakıətrafı kəndlərdə kanalizasiya sistemində ciddi problemlər var. Bununla bağlı xüsusi dövlət proqramı hazırlanmalıdır. Sudan istifadə edənlər demək olar ki, pul ödəmir. Bunu necəsə tənzimləmək lazımdır".

Parlamentin Aqrar siyasət komitəsinin sədri Sadiq Qurbanov deyib ki, suyun keyfiyyəti ilə bağlı məsələ ürəkaçan deyil: "Bakı şəhəri üzrə mövcud olan 94 mərkəzi və məhəllədaxili su anbarlarının "Azərsu" ASC tərəfindən yuyulub zərərsizləşdirilməsi təmin edilib, bu tədbirlərdən sonra sanitariya nəzarəti zamanı laboratoriya müayinəsi üçün götürülmüş 112 su nümunəsindən 9,8 faizinin bakterioloji göstəriciləri qeyri-kafi olub, fiziki-kimyəvi göstəriciləri isə norma daxilində olub. Dövlət standartının tələblərinə uyğun gəlməyən nəticələr üzrə müvafiq tədbirlər görülüb, təkrari müayinələr aparılıb. Göstərilən müddət ərzində Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin laboratoriyasında ayrı-ayrılıqda müayinə olunmuş 473 su nümunəsinin 33 faizi dövlət standartlarının tələblərinə cavab verməyib".

### "Əhalisi 200 min nəfərdən çox olan Bərdə rayonunda kanalizasiya sistemi yoxdur"

Deputat Fatma Yıldırım bildirib ki, əhalisi 200 min nəfərdən çox olan Bərdə rayonunda kanalizasiya sistemi yoxdur: "2020-ci ildə dövlət qurumunun rəhbərləri ilə görüşdə bu məsələ qaldırılıb, lakin keçən müddət ərzində bu istiqamətdə heç bir addım atılmayıb. Hazırda Bərdədə ərazi üzrə həm fərdi evlərin, həm də çoxmərtəbəli yaşayış binalarının çirkab suları yeraltı quyulara doldurulur. Vaxtaşırı çirkab sularının texnika ilə daşınması, bəzi hallarda yollara daşaraq dağılması bir çox yoluxucu xəstəliklərin yayılmasına zəmin yaradır. Eyni zamanda dövlət proqramına əsasən şəhid ailələri və məcburi köçkünlər üçün tikilib istifadəyə verilmiş çoxmərtəbəli yaşayış komplekslərinin bünövrəsinə ciddi zərər verir. İnsanların sağlamlığına birmənalı təsir göstərən və gündəlik məişət probleminə çevrilmiş bu məsələnin mövcud olması yolverilməzdir və tezliklə aradan qaldırılması olduqca önəmlidir".

### "Su filtrləri nə dərəcədə standartlara cavab verir?"

Deputat Naqif Həmzəyev köhnə sayğacları yeni elektron sayğaclarla əvəzləməyi də təklif edib: "Gəncə sakinləri hələ də içməli suyu su maşınlarından alır. İstənilən an insanlara qarşı təxribat törədilə bilər. Gəncədə kanalizasiya layihələrinin icrası davam edir. Amma bu zaman bir yolu bəzən üç dəfə qazırlar. Bu, sakinlərə çətinlik yaradır. Gəncə çayı Azərbaycanın ən qədim çaylarından biridir, amma bu qədim çay quruyub. Bəzi adamlara Gəncə çayının quruması sərf edir. Onlar istəyir ki, çay qurusun və o əraziləri satsınlar. Bu problemin qarşısı alınsın". Deputat su filtrləri ilə bağlı məsələni də qaldırıb: "Su filtrləri nə dərəcədə standartlara cavab verir? Bazarda hər qiymətə su filtri var. Onsuz da biz ölü su içirik. Üstəgəl, filtrlərə aldanaraq, guya təmiz su içdiyimizi düşünürük. Amma bu, təmiz su deyil. Filtrlərlə bağlı xüsusi sertifikasiya həyata keçirilməlidir. Əks halda biz özümüzü aldada-aldada pis halla üzləşəcəyik".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”



# Bir azdan Xocalıda həyat qaynayacaq

## İnsanlar növbəti aydan doğma yurdlarına köçməyə hazırlaşır

**İki gün əvvəl XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının 32-ci ildönümünü qeyd etdik. 1992-ci il fevralın 26-sına keçən gecə Xocalı faciəsini törətməklə erməni millətçiləri məkrli məqsədlər güdürdülər. Azərbaycan xalqını qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək. Amma hiyləgər və amansız düşmənin bu niyyəti baş tutmadı. Torpaqlarımızın müdafiəsi uğrunda hər an şəhidlik zirvəsinə yüksəlməyə hazır olan vətənpərvər nəsil yetişdi və 30 illik işğala 44 gündə qəhrəmanlıqla son qoydu.**

Xocalı faciəsinin 32 illiyində soyqırımı şəhidlərimiz həm də ilk dəfə azad edilmiş həmin ərazimizdə yad edildi.

Prezident İlham Əliyev fevralın 26-da Xocalı şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu kimi məqamlara xüsusi diqqət yönəldib: ”Otuz iki ildən sonra siz qayıtmısınız. Otuz iki ildən sonra - o qanlı faciədən sonra biz Azərbaycanın hər bir guşəsində, Qarabağın hər bir yerində sahib kimi, bu Vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq işləri gedir” söyləyən dövlətimizin başçısı onu da bildirdi ki, ”Xocalıya ədalət!” tələbimiz tam haqlı idi. Bu ədaləti döyüş meydanında təmin etməyimiz beynəlxalq hüquqa və tarixi ədalətə tam uyğundur. Tarixi ədaləti bərpa etmişik. Günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq. Buna 30 il vaxt lazım oldu. Ancaq bu 30 il ərzində görülmüş işlər, apardığımız məqsədyönlü siyasət bu günü burada yaşamaq üçün imkan yaradırdı”.

Ali Baş Komandanın Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyması da ”Böyük Qayıdış” prosesi istiqamətində atılmış növbəti ən uğurlu addımlardan biri kimi qəbul olunmaqdadır.

Dövlət başçımızın qayıdış yolunda Xocalıdan verdiyi mesajlar diqqətləri xüsusilə cəlb edib: ”2024-cü ildə Qarabağ və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlərin qayıdacaqları yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdıb. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Prezident həmçinin qeyd edib ki, bu il həm Xocalıda, həm də Xankəndidə artıq həyat bərpa ediləcək. Bundan başqa, tezliklə Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək. Ağdam şəhəri bərpa edilir və gələn il Ağdama da ilk köç başlanacaq, yeni quruculuq işləri geniş vüsət alıb.

Qeyd edək ki, ötən ilin 19-20 sentyabr tarixində Ordumuzun keçirdiyi antiterror tədbirləri nəticəsində Xocalı şəhəri separatçılardan təmizlənərək işğaldan azad edildi. Bir zamanlar soyqırımı və dağıntılara məruz qalan Xocalının azad olunması xalqımız üçün ən əlamətdar hadisələrdən biri idi. Ona görə də Xocalının dərhal bərpasına başlanılması mənəvi baxımdan hər birimiz üçün böyük əhəmiyyət daşıyır.

Xocalı sakinləri tezliklə beynəlxalq hüququn prinsiplərinə əsasən, könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıdacaqlar. Hazırda Xocalıda bərpa işlərinin yüksək sürətlə davam etdirilməsi bunu deməyə əsas verir.

”Xocalıda yerləşən məktəbdə son tamamlanma işləri aparılır”. Bu fikirləri isə elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, yeni tədris ilində məktəbdə tədris prosesinin başlaması nəzərdə tutulur:

”Məktəbdə təxminən 150-yə yaxın şagirdin təhsil alacağı gözlənilir. Ayrıca idman və akt zalı olacaq. Əhalinin köç prosesi müddətində yerli əhalinin sayına uyğun məktəbdə yer olacaq”.

Nazir onu da bildirib ki, işğaldan azad olunan Kəlbəcər, Zəngilan və digər ərazilərdə də məktəblərin təmir-tikinti işləri davam edir.

E.Əmrullayev söyləyib ki, Xankəndidə yerləşən ümumtəhsil müəssisələri ilə bağlı müvafiq invertarlaşma işləri görülür: ”Azad edilən bütün ərazilərdə tədris ocaqlarının uçotu aparılır, müxtəlif vəziyyətdə olan binalar var. Onların hər biri də ölkənin tədris standartlarına uyğunlaşdırılır”.

**Fevralın 26-da Xocalıda keçirilən tədbiri tarixi hadisə kimi dəyərləndirən Xocalıdan olan millət vəkili Elman Məmmədov isə hesab edir ki, məhz faciə günü cənab Prezidentin Xocalıya səfəri, Xocalı şəhidlərinin xatirəsinə ucaldılacaq çox möhtəşəm bir abidə kompleksinin təməlini qoyması düşmənə və onun havadarlarına çox ciddi bir mesaj idi:**

”Azad olunmuş torpaqlarımızda, azad olunmuş Xocalımızda bərpa-quruculuq işləri gedir. Qanları yerdə qalmayan, döyüş meydanında qanları alınan şəhidlərimizin əziz xatirəsinə abidə ucaldılacaq. Başqa işlərin görülməsi də nəzərdə tutulur. Bu ondan xəbər verir ki, bu torpaqların əsl sahibləri bizlərik. Bununla dünyaya da bir mesaj verilir. O torpaqlara biz yenidən gəldik. Hamımız bundan qürur duyuruq. 32 il bundan öncə biz xocalılılar 4 il ermənilərlə üzbəüz döyüşlərdən sonra soyqırıma məruz qaldıq, oranı məğlub olaraq tərk etdik. Amma indi biz Xocalıya qalib xocalılılar, qalib Azərbaycan vətəndaşları kimi qayıtdıq. Bundan böyük qürur, sevinc hissindən başqa nə ola bilər ki? Bir Xocalı sakini kimi ordumuza, bu torpaqların azad olunmasında iştirak edən hər bir hərbiçimizə minnətdaram. Onları tərbiyə edən Azərbaycan xalqına, dövlətimizə, ordumuza rəhbərlik edən Ali Baş Komandanımıza minnətdaram. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların bu gün ruhları şaddır. Çünki onların uğrunda canlarını verdikləri torpaqlar, Vətən azaddır”.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadənin ”Şərq”ə açıqlamasına görə, Xocalıdan olan 50 ailə növbəti aydan doğma yurdlarına köçməyə hazırlaşır:**

”Ötən il sentyabrın 20-də Azərbaycanın öz suverenliyinin tam bərpasından sonra dövlətimizin başçısı dərhal göstəriş verdi ki, ilk növbədə, Xocalıda xocalılıların evləri bərpa edilsin. Çünki mənfur düşmən qanlı soyqırımı törədib, Xocalını yerlə-yeksan edib, xocalılıları öz doğma torpağından didərgin salıb. Xocalının tarixi adını dəyişdirməyə cəhdlər olub. Azərbaycanlıların evlərinə isə separatçılar və xarici ölkələrdən olan insanlar yerləşdirib. Onların hamısı doğma torpaqlarımızdan qovuldu. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Xocalıda Azərbaycan Bayrağını qaldıranda hər bir soydaşımızın, xüsusilə xocalıların sevinci yerə-göyə sığmadı. Xocalı da öz azadlığına qovuşdu.

Dövlət başçısı bir neçə gün əvvəl Xocalı şəhərinə səfəri və rayon ictimaiyyətinin nümayəndələri ilə keçirdiyi görüşdə isə Xocalıya qayıdışın tam reallaşacağına əminlik yarandı. Bu gün Xocalı tam azaddır. Otuz iki ildən sonra ilk dəfə Xocalı soyqırımı günü Xocalıda qeyd olundu. Biz otuz iki ildən sonra doğma torpağımıza qayıtmışıq. Dövətimizin başçısı Xocalı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün Xocalıda Memorial Kompleksin təməlini qoydu. Bu Memorial Kompleksin təməli çoxdan qoyulmuşdu, layihəsi də çoxdan hazır idi, ancaq tikintisi hər il təxirə salınırdı. Ona görə ki, biz Xocalıya qayıdacağımıza inanırdıq. Qayıtdıq da”.

**Xocalı soyqırımının heç vaxt xalqımızın yaddaşından silinməyəcəyini vurğulayan Ç.Qənizadə deyib ki, 32 il bundan əvvəl Ermənistan dövləti bu qanlı faciəni törədərək, günahsız insanları qətlə yetirib.**

Lakin beynəlxalq təşkilatlar, iri dövlətlər bu soyqırımına laqeyd yanaşdı. ”Xocalıya ədalət!” çağırışımız cavabsız qaldı. Cəmi 18 ölkə bizim səylərimizin nəticəsi olaraq, bu qanlı faciəni soyqırımı kimi tanıyıb. Halbuki xocalılıların başına gətirilən müsibəti inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda çox böyük yeri var. Bu faciə qəlbimizdə çox böyük yaralar salıb”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Fransa indiyə qədər heç bir ölkənin təhlükəsizliyinə zəmanət verməyib

## Ermənistanın bu gün təhlükəsizliyinə zəmanət verə biləcək ölkə Azərbaycan və Türkiyədir

**Paşinyanın Parisə səfərindən sonra Fransanın Xarici Təhlükəsizlik Baş İdarəsi (DGSE) ilə Ermənistan kəşfiyyatı arasında Azərbaycan, İran, Rusiya və Türkiyə üzrə kəşfiyyat məlumatlarının mübadiləsinə dair razılıq əldə olunub.**

Bununla bağlı Fransanın ”Aqoravox” nəşri məlumat yayıb.

Məlumatda eyni zamanda Fransanın Ermənistana xüsusilə sərhədlər boyunca mövcud hərbi vəziyyətlə bağlı peyk məlumatlarını göndərməyi üzərinə götürdüyü bildirilib.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan hərbi ekspert Ədalət Verdiyev söyləyib ki, Fransa Azərbaycan və Türkiyəyə qarşı düşmən münasibətini hələ də davam etdirir:**

”Ermənistanın iddialarından da daha üstün fikirləri Azərbaycana istiqamətləndirən Fransa regionda sülh və sabitliyə mane olmağa çalışır. Həmçinin Fransa təhlükəsizlik məsələsində tamamilə sahibsiz qalan Ermənistanı öz çətiri altına çəkməklə müdafiə, hücum silahları və kəşfiyyat məlumatları ilə təmin etməklə bağlı üzərinə öhdəlik götürür. Bunlar isə birmənalı şəkildə Azərbaycana qarşı düşmənçilik siyasətidir”.

**Hərbi ekspert vurğulayıb ki, Ermənistan müharibədən əvvəl də digər havadarlarından silah-sursat və kəşfiyyat məlumatları əldə edirdi:**

”Amma bu, Ermənistanı Vətən müharibəsindən və lokal xarakterli antiterror tədbirlərindən qorumadı. Fransa indiyə qədər heç bir ölkənin təhlükəsizliyinə zəmanət verməyib. Fransanın fərari ordusuna malik Ermənistan dövlətinə verdiyi dəstək İrəvanı Bakı qarşısında götürdüyü öhdəliklərdən azad edə bilməyəcək. Ermənistanın bu gün təhlükəsizliyinə zəmanət verə biləcək ölkə Azərbaycan və Türkiyə birliyidir. Hansısa digər ölkənin bu məsələdə öhdəlik götürməsi Ermənistanın süqutu ilə nəticələnə bilər”.

**Şahanə Ziyad**

# "Su ödənişi ilə bağlı əhalinin cəzalandırılmasının əleyhinəyəm"

## Ekoloq: “Sadəcə, insanları məlumatlandırmaq lazımdır”

**Su təsərrüfatı ilə bağlı xüsusi qanun qəbul edilməlidir və bu, bütün su təsərrüfatlarını əhatə etməlidir.**

**Bunu Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya və Aqrar siyasət komitələrinin birgə təşkilatçılığı ilə keçirilən ”Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar” mövzusunda dinləmədə deputat Fəzail Ağamalı deyib.**

Deputat bildirib ki, insanlarımızın suya qarşı münasibəti ürəkaçan deyil: ”Biz həm İnzibati Xətalar, həm də Cinayət Məcəlləsində bununla bağlı cərimələr və cəzalar müəyyənləşdirək. Suya qarşı münasibət dəyişməlidir. Daxili çayların, yağış sularının anbarlara yığılaraq istifadəsi çox yaxşı haldır. Bakıətrafı kəndlərdə kanalizasiya sistemində ciddi problemlər var. Bununla bağlı xüsusi dövlət proqramı hazırlanmalıdır. Sudan istifadə edənlər demək olar ki, pul ödəmir. Bunu necəsə tənzimləmək lazımdır”.

**Məsələyə münasibət bildirən ekoloq Rövşən Abbasov ”Şərq”ə açıqlamasında bildirib ki, bəzi ərazilərdə, xüsusilə Abşeron yarımadasının bir neçə sahəsində sudan qeyri-qanuni istifadə halları mövcuddur:**



”Həmin halların qarşısı isə mütləq alınmalıdır. Bunun üçün sayğaclar quraşdırılmaqla bərabər, mütəmadi yoxlanışlar aparılmalıdır. İnsanlarda sudan istifadə də qənaət təşəbbüsləri formalaşdırılmalıdır. Bilməliyik ki, müasir dövrdə su o qədər də ucuz resurs deyil. Hər birimiz mağazalardan içməli su aldıqda bir litr üçün təxminən 1 manata yaxın pul ödəməli oluruq. Ancaq evimizdə quraşdırılan suyun 1000 litrinə 70 qəpikdən də az ödəməyə çətinlik çəkirik. Bu hallar su idarəsində müəyyən problemlər yaradır. Çünki bu sahədə çalışan təşkilatların əksəriyyətində minlərlə şəxs fəalliyyət göstərir. Onların əməyi nəticəsində su istifadə ünvanına çatır. 90-cı illərdən sonra Bakı ətrafında gedən qeyri-məskunlaşma, evlərin və villaların tikilişi ciddi sanitariya problemləri yaradır. Məsələn, həmin ərazilərdə kanalizasiya şəbəkəsinin təşkili problem yaradır”.

**R.Abbasov onu da qeyd etdi ki, kifayət qədər vəsait və layihə təşkil olunsa da, bu cür sistemlərin quraşdırılması illərlə vaxt aparacaq:**

”Yəni bununla bağlı nə dövlət proqramı, nə də konkret cəza tədbirləri köməklik göstərə biləcək. Su ödənişi ilə bağlı əhalinin cəzalandırılmasının əleyhinəyəm. Sadəcə, insanları məlumatlandırmaq lazımdır. Bu səbəbdən əvvəlcədən özbaşına məskunlaşmanın qarşısını almalıydıq. Abşeron yarımadasında yararlı torpaq sahələri sıradan çıxıb və yataq yerlərinə çevrilib. Bu da torpağın birdəfəlik istifadədən çıxarılması deməkdir. Buradakı evləri daha effektiv formalaşdırmaq lazım idi. Çoxmərtəbəli mənzillər tikərək həyət evlərinin ərazisini azaltmaq olardı. Ancaq bundan sonra ciddi tədbirlər görülməlidir. Təklif edərdim ki, qeyri-formal tikilən evlər sökülsün və kənd təsərrüfatı məqsədilə istifadəyə verilsin. Həmin ev sahibləri bina evləri ilə təmin olunsun”.

**Nəzrin Vüqarqızı**

# Evdə silah saxlamaq ciddi təhlükədir

## Hüquq-mühafizə orqanlarının belə hallara qarşı mübarizəsi anlaşılan və təqdirəlayiqdir



**Qanunsuz saxlanılan odlu silah-sursatın aşkar olunaraq götürülməsi istiqamətində tədbirlər davamlı olaraq həyata keçirilir. Ötən gün polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə qanunsuz saxlanılan 1 ədəd avtomat silahı, 1 patron darağı və 56 ədəd patron aşkar edilərək götürülüb.**

Qeyd edək ki, polis əməkdaşları qanunsuz saxlanılan odlu silahların könüllü təhvil verilməsi ilə bağlı profilaktik tədbirləri də davam etdirir. Eyni gün polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 1 ədəd avtomat silahı, 1 ədəd qumbara, 9 ədəd müxtəlif markalı tüfəng, 1 patron darağı və 6 patron təhvil götürüblər.

**Təhlükəsizlik eksperti Elmar Nurəliyev isə "Şərq"ə açıqlamasında deyib ki, qanunsuz silahların vətəndaşlar arasında yayılması, onların qeydiyyata alınmaması ciddi problemdir. Bu baxımdan, hüquq-mühafizə orqanlarının belə hallara qarşı mübarizəsi anlaşılan və təqdirəlayiqdir:**

"Qanunsuz odlu silahların əldə edilməsi, saxlanılması və daşınması qanunla qadağandır və cinayət məsuliyyəti yaradır. Evdə, iş yerində silah saxlamaq, avtomobildə, üzərində gəzdirmək yolverilməzdir. Cinayət Məcəlləsinin 228-ci maddəsinə əsasən, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə qanunla qadağan olunur".

**E.Nurəliyevin sözlərinə görə, insanlar evlərində olan qanunsuz silahları sadəcə maraq üçün saxlasalar belə, misal var:**

Silah varsa, o, nə vaxtsa açılacaq. Ona görə də hüquq-mühafizə orqanlarının qanunsuz saxlanılan odlu silahların könüllü təhvil verilməsi ilə bağlı profilaktik tədbirləri təqdirəlayiq haldır: "İnsanlar inansalar ki, onları sonradan bu səbəbə görə sorğu-sual etməyəcəklər, silahları təhvil verəcəklər. Bu həm də, odlu silahla törədilən cinayətlərin azalmasına gətirib çıxaracaq".

*Ekspertin fikrincə, rəsmi icazəli silah sahibləri də öz məsuliyyətini dərk etməlidir:* "Silahı evdə açıq-aşkar formada saxlamaq təhlükəsizlik baxımından yolverilməzdir. Silahı xüsusi metal qutuda saxlamaq lazımdır. Silahın saxlandığı seyfin qalınlığı 3 mm, kilidləri isə iki dənədən az olmamalı və silah evdə xüsusi ayrılmış yerdə və boş halda saxlanılmalıdır. Silah olan yerdə istiliyin, yanğına qarşı tez alışan, tez alovlanan maddələrin olmamasına diqqət edilməlidir. Silahın özü sahibi üçün əlavə məsuliyyət yaradır. Sizdə silahın olması pis niyyətli adamların öz əməllərini icra etmək üçün sizin evinizə qanunsuz daxil ola bilmək ehtimalı yaradar, özünüz və ailənizin təhlükəsizliyini təhdid altına atar. Ən başlıcası isə silah evdə uşağın əlinə keçə bilər və bədbəxt hadisəyə səbəb olar. Silahı mənzildə düzgün təhlükəsizlik qaydalarına uyğun formada saxlayarsa, heç bir bədbəxt hadisə baş verməz".

Şəymən




## Ünsiyyət hər kəs üçün: indijest dilini öyrənmək daha rahat oldu

**"Nar"ADA Universiteti və "Karlara Dəstək" İctimai Birliyi ilə birgə ərsəyə gətirdiyi "Jestdili.az" saytı tam yeniləndi.**

İlk elektron jest dili lüğəti,nitq və eşitmə məhdudiyyətli şəxslərin və onların yaxınlarının onlayn şəkildə istənilən yerdə və vaxtda Azərbaycan jest dilini tamamilə pulsuz öyrənməyə imkan verir.

Saytın yeni versiyasında 4000 sözün video tərcüməsi ilə yanaşı, gündəlik həyatda istifadə edilən500 cümlə nümunəsi də təqdim edilib. İstifadəçilərin rahatlığını təmin etmək üçün "jestdili.az"ın interfeysi dətəkmilləşdirilib. ADA universitetinin İnformasiya Texnologiyaları fakültəsinin tələbələri saytın müasir dizayn, yenilənmiş axtarış sistemi və bir çox digər funksiyalarla zənginləşməsini təmin ediblər.

"Ünsiyyət hər kəs üçün" adlı konfransda "Nar"ın İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin direktoru Əziz Axundov qeyd edib ki, "jestdili.az" saytındakı son yeniliklərbu resursun əhatə dairəsini genişləndirəcək."Biz müştərilərimizə ən yaxın mobil operator olmaqla yanaşı, ünsiyyət məhdudiyyətlərini aradan qaldırmağı hədəfləyir, daha inklüziv cəmiyyətin qurulmasına dəstək oluruq", - deyə Əziz Axundov vurğulayıb.

*Qeyd edək ki, "jestdili.az" layihəsi ən uğurlu sosial təşəbbüs kimi Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası tərəfindən Golden World Award mükafatına layiq görülüb. "Nar"ın həyata keçirdiyi bütün sosial layihələr haqqında ətraflı məlumatı nar.az/projects səhifəsindən əldə etmək olar.*

# 70-80 milyard dollarlıq bazardan söhbət gedir

## Çinlilər ildə bu qədər pulu eşşək dərisinə, maral buynuzuna, at dırnağına, dağ ot-ələfinə xərcləyirlər

**"Təxminən 7 il əvvəl Çində adambaşına düşən istehlak normasının 1 dollar müəyyən edildiyi haqda rəsmi xəbər veriləndə buna istehza ilə yanaşanlar olmuşdu.**

Qərbdəki, hətta bizdəki istehlak normalarına yaxınlaşmaq üçün illər, bəlkə də 10 illər lazım gəldiyini demişdilər. Ancaq bu rəqəm günə 1,5 milyard, ilə 558 milyard dollarlıq istehlak gücü deməkdir. İndi o rəqəm iki dəfə artıb, yaxın 10 ildə daha iki dəfə artacaq. Bəs bu, dünyaya nə vəd edir?". Bu barədə politoloq Cəmaləddin Quliyev deyib. Ekspert bildirib ki, türk mediasında bir müddət əvvəl maraqlı araşdırma dərc olunmuşdu. Araşdırmaya görə, türk broyler müəssisələri kəsimə getməmiş toyuqların qıçlarını kəsib ayrıca Çinə göndərirlər: "Çünki Çində toyuq qıçları delikatesdir. Tələbat o qədər çoxdur ki, toyuqları kəsimə göndərməzdən öncə ayaqlarından məhrum etməyi məqbul sayıblar. "BBC" isə Afrikada ildə 6 milyona qədər eşşəyin tələf edilməsi haqda reportaj hazırlamışdı. Deməli, Çin ənənəvi təbabətində eşşək dərisindən hazırlanan jelatin "cavanlıq iksiri" sayılırmış. Üstəlik, həmin jelatin şorbalar hazırlanmasında da geniş istifadə edilir. Çinlilərin istehlak qabiliyyəti artdıqca, hələ qulaqlarımız çox qəribə məlumatlar eşidəcək. Ukraynalı tanınmış jurnalist Dmitri Komarovun "Mir naiznanku" verilişində Çindən hazırladığı silsilə reportajlarda izlədiyim ən maraqlı faktlardan biri məhz ənənəvi Çin təbabətinin yaratdığı istehlak bazarı ilə bağlı idi. İldə təxminən 70-80 milyard dollarlıq bazardan söhbət gedir. Çinlilər ildə bu qədər pulu eşşək dərisinə, maral buynuzuna, at dırnağına, dağ ot-ələfinə və s. xərcləyirlər. 1989-cu ildə Azərbaycan dərman bitkiləri, cır meyvə ixracından 300 milyon dollar gəlir əldə edib. Çinlilərin istehlak qabiliyyətinin artması üzümüzə bundan dəfələrlə artıq ixrac imkanları açır. Güman ki, indiki nəsil Çinin dünyanın ən böyük istehlak bazarına çevrilməsinin şahidi olacaq. İndi ABŞ və Avropa bazarına çıxmaq böyük imtiyazdır və az qala, bütün dünya sənayesi o bazarlar üçün işləyir. Amma yaxın müddətdə belə durum Çində də olacaq. Hazır olsaq, o bazarın tələbatı yalnız neft və qaza deyil. Üfüqdə daha böyük imkanlar görünür...".



İsmayıl

## 8 milyon manata...

Bakıda fantastik qiymətə "Ağıllı ev" satılır



**Bakıda fantastik qiymətə mənzil satışa çıxarılıb.**

Oxu.az xəbər verir ki, Səbail rayonunda yerləşən, 315 kvadratmetr olan mənzil dörd otaqdan ibarətdir.

"Ağıllı ev" strukturu ilə təmir edilən mənzil 8 milyon manata alıcılara təklif edilib.

# Ən azı 7-8 saat yatmaq şərtdir

## Xroniki yorğunluq ciddi xəstəlikdir, getdikcə artır



**Stressli iş rejimi, gərgin həyat və psixoloji təzyiqlər insan sağlamlığına mənfi təsir göstərir. Bu səbəblə son illərdə tezliyi artan xəstəliklər arasında xroniki yorğunluq sindromu da var. Xroniki yorğunluq insanın daimi olaraq özünü yorğun, bitkin hiss etməsi, sıxıntı yaşaması, dincəlməklə belə özünü yaxşı hiss edə bilməməsi kimi problemlərlə ortaya çıxan bir haldır.**

Doğrudur, gündəlik həyatda 8 saatlıq iş rejimindən sonra çox adamda yorğunluq yaranır. Ancaq bəzi insanlar heç nə etmədiyi halda da özünü yorğun hiss edir. Xroniki yorğunluq sindromu insanın özünü daim yorğun və bədbəxt hiss etməsi, istirahət edərkən belə özünü yaxşı hiss edə bilməməsi kimi problemlərlə ortaya çıxan bir vəziyyətdir. Diqqətin zəifləməsi, yuxu pozğunluğu, oynaq, əzələ, baş ağrıları və uzunmüddətli əzginlik hissi xroniki yorğunluğun əlamətləri sayılır. Keçmişdə bəzi insanlar xroniki yorğunluğun əsl xəstəlik olduğuna inanmırdılar. Lakin son illərdə mütəxəssislər bu sindroma daha ciddi yanaşmağa başlayıblar və bunun niyə baş verdiyini və müalicə üsullarını öyrənmək üçün araşdırma aparırlar.

***"Bu sindromdan qurtulmaq üçün sağlam və balanslaşdırılmış qidalanmaq, təmiz havada çox vaxt keçirmək vacibdir"***

Həkimlərin fikrincə, xroniki yorğunluq insanın daim zəif, yuxulu və gündəlik işlərin öhdəsindən gələ bilməyəcəyi bir vəziyyətdir. İnsanların təxminən dörddə biri bu problemlə ümumi praktik həkimə müraciət edir. Ən çox 20-50 yaşlı insanlarda, əsasən qadınlarda müşahidə olunur. Xroniki yorğunluq sindromu yalnız uzun, düzgün istirahətlə aradan qaldırıla bilən yorğunluq deyil. Bu, tibbi yardım tələb edən bir xəstəlikdir. Əks halda problem xəstələrdə zaman keçdikcə daha da ağırlaşa və iş həyatını, hətta gündəlik həyatını sağlam şəkildə davam etdirməsinə mane olacaq səviyyəyə çata bilər.

Xroniki yorğunluğun günümüzün ən aktual şikayətlərindən biri olduğunu vurğulayan nevroloq Elvin Niftəliyevin fikrincə, bu sindrom insanın gündəlik işləri yerinə yetirmək qabiliyyətinə təsir edə bilən ciddi bir xəstəlikdir.

**Nevroloqun "Şərq"ə açıqlamasına görə, xroniki yorğunluq sindromundan əziyyət çəkən insanlar çox vaxt bundan xəbərsiz halda, soyuqdəymənin əlaməti hesab edikləri - "çox yorulmuşam, halsızam", "bütün bədənim, əzələlərim ağrıyır", "dincəlirəm, amma yorğunluğum çıxmır", "nə qədər yatıram, yuxudan doymuram" ifadələri ilə şikayətlənirlər:**

"Lakin sürətlə inkişaf edən meqapolislər, dəyişən həyat tərzi, yaranan yeni texnologiyalar və onlara olan aludəçilik insanları informasiya bolluğunun yaratdığı bir burulğana salır. Həmçinin qidalanma rejiminin pozulması, qidaların keyfiyyətinin aşağı olması, şəhərlərdə sürətlə əhali artımı və bunun nəticəsində yaşıllıqların məhv edilməsi, bütün gün ərzində ofislərdə çalışan insanlarda yaranan oksigen çatışmazlığı, qan azlığı, il ərzində təkrarlanan virus infeksiyaları, xroniki xəstəliklər zamanı uzun müddət dərman vasitələrindən istifadə, fiziki əməyin azalmasını sindromun yaranma səbəbi kimi göstərmək olar. Bu sindromdan qurtulmaq üçün sağlam və balanslaşdırılmış qidalanmaq, təmiz havada çox vaxt keçirmək, gecə yuxusunu tənzimləmək və ən az 7-8 saat yatmaq lazımdır. Əgər sindromun vaxtında qarşısı alınmazsa, bu, zehni əmək qabiliyyətinin zəifləməsinə, yaddaşın pozulmasına, infeksiyalara qarşı müqavimətin azalmasına, bir çox allergiyaya bənzər halların yaranmasına və ən sonda intellektual, psixoloji, cinsi pozğunluqlara səbəb ola bilər".

**Həkimin sözlərinə görə, xroniki yorğunluq orqanizmdə gedən hansısa bir xəstəliyin, vitamin çatışmazlığının da əlaməti ola bilər:**

"Qalxanvari vəz, yaxud qan azlığı, fol turşusu, dəmir, kalsium, B12 və ya D vitamini çatışmazlığı olan insanlar da daimi yorğunluqdan şikayət edir. Hətta artıq çəkisi olanlar daha çox həmin problemdən əziyyət çəkirlər. Hansı xəstəlik xroniki yorğunluğa səbəb olursa, məhz ona qarşı müalicə tədbiri aparılmalıdır. Məsələn, bunun səbəbi qan azlığıdırsa, onu bərpa etmək, orqan narahatlığıdırsa, həmin orqanı müalicə etmək lazımdır".

Şəymən

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Nihat Kərimli, Şəhanə Ziyad

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 492



## Tarixin ən böyük qalmaqalı olmuşdu

Monika bu dəfə müxtəlif ictimai layihələrlə gündəmə gəlib

**ABŞ Prezidenti Bill Klintonla sevgi macərası ilə məşhurlaşan Monika Levinski moda dünyasına təşrif buyurub.**

"Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, 1993-cü ildə ABŞ-nin 42-ci prezidenti seçilmiş Bill Klintonun nüfuzuna "yasaq sevgi" münasibətləri əməlli-başlı zərər vurub. Prezidentliyi dövründə özünə "yasaq sevgi"ni rəva görən Bill Klintonun sevgilisi, 21 yaşındaykən Ağ Evdə stajorluq keçən Monika Levinski isə bu qalmaqaldan sonra müxtəlif ictimai layihələrlə gündəmə gəlib. Məsələn, o, 2014-cü ildə zorakılığa məruz qalanlar və yardıma ehtiyacı olanlar üçün kampaniya başladıb, ictimai fəal kimi tanınıb. Monika Levinski hazırda 50 yaşındadır və indi də məşhur markanın təmsilçiliyini həyata keçirir. M.Levinski "Reformation" markasının "You've Got the Power" (Güc Səndə) adlı kampanyası üçün kameralar qarşısına keçib. Kampaniya "Qadınların səsinə səs verin" şüarı altında keçirilir. M.Levinski qadınları seçkilərdə aktiv olmağa çağırıb və geyindiyi dəbli geyimlərə işarə edərək belə bir çağırış edib: "Gözəl bir kombin geyinmək qadınlar arasında güclü bir bağlantı yaratmaz, amma gedib səs vermək bu bağlılığı gücləndirə bilər".

**Məlahət**

## İordaniya kralı Qəzzanın üzərindən uçdu

II Abdullah paraşütlə fələstinlilərə yardım paylayıb





**İordaniya kralı II Abdullah hərbi forma geyinərək Qəzzaya humanitar yardım əməliyyatında iştirak edib. Hərbi Hava Qüvvələrinə məxsus təyyarə ilə Qəzza üzərindən uçan kral, yardımlarla dolu təyyarədən şəxsən dəstək verib.**

"Şərq" xəbər verir ki, İordaniya kralı uçuşdan əvvəl verdiyi açıqlamada fələstinlilərə yardımın ikiqat artırılmasının lazım olduğunu vurğulayıb.

Abdullah beynəlxalq ictimaiyyətin yardımı artırmaq üçün İsrailə təzyiq göstərməli olduğunu bildirib. Daha sonra tonlarla ərzaq və tibbi ləvazimatlar havadan Qəzza zolağının sahil hissəsinə paraşütlə atılıb.

Qəzza işğalının başlanğıcından bəri fasilələrlə fələstinlilərə hava yardımı çatdıran İordaniya indiyə qədərki ən böyük əməliyyatı təşkil edib.

İordaniya Hərbi Hava Qüvvələri iki gün ardıcıl olaraq havadan yardım ləvazimatlarını atıb. İlk gündə 4 təyyarənin iştirak etdiyi əməliyyat zamanı paraşütlərin bir hissəsi dənizə düşüb. Dünən İordaniyadan 7 ədəd C-130 yük təyyarəsi havaya qalxıb. Kral Abdullah əməliyyatda şəxsən iştirak edib və yardım fəaliyyətinə nəzarət edib. Son günlər Misir sərhədindən yardım maşınlarının girişi dayanıb. İki milyondan çox fələstinli əsas ehtiyacları üçün havadan atılan yardımdan asılı vəziyyətə düşüb.

**Turan**

## Hadisənin yeni eşqi üzə çıxıb

O, Mert Ayaydın ilə görüntülənib



**Məşhur müğənni Hadisə iş adamı Mert Ayaydınla eşq yaşayıb. Cütlüyün bir yerdə çəkilmiş görüntüləri sosial mediada yayılıb.**

"Şərq" xəbər verir ki, Hadisə yeni sevgilisi ilə əylənmək üçün bir yerə gedib.

Məkanda Mert Ayaydınla romantik anlar yaşayan Hadisə sevgilisi ilə rəqs edib. 38 yaşlı Hadisənin Mert Ayaydınla intim anları kameralara belə düşüb.

Onlar məkanı ayrı tərk ediblər. Jurnalistlər "Təbrik edirəm" deyəndə Hadisə ancaq gülümsəyib və onlara təşəkkür edib.

**Turan**

## Model bələdiyyə sədrliyinə namizəd oldu

Simurg Sarsılmaz 4 nəfərə qarşı yarışacaq



**Türkiyədə model bələdiyyə sədrliyinə namizədliyini irəli sürüb.**

Milli.Az haberler-ə istinadla bildirir ki, Diyarbakırın Bağlar mahalının bələdiyyə sədri olmağı arzulayan model Simurg Sarsılmaz 4 namizədə qarşı yarışacaq.

*Bu barədə modelin özü sosial şəbəkədə məlumat verib. Qeyd edək ki, seçkilərin mart ayının 31-də keçirilməsi nəzərdə tutulub.*

**Turan**



# Bu kənddə kişilər küçəyə çıxmır

Qadağanın səbəbi çox maraqlıdır

**4 il əvvələdək kənddə belə şey görünməyib. Kişilərin küçəyə çıxmalarına qadağa son illərdə yaranıb. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, Türkiyənin Bursa bölgəsi, İnegöl əyalətinə bağlı Dibsizğöl məhəlləsində qədimdə mövcud olmuş bir ənənə yenidən bərpa edilib.**

Ötən illərdə mövcud olmuş ənənəyə görə, ildə bir gün kişilərə küçəyə çıxmaq qadağan edilir, əvəzində qadınlar kənd çayxanasında, kənd meydanında geninə-boluna gəzir, çayxanada istədikləri qədər əyləşib çay, qəhvə içir, söhbət edirlər. 4 ildir ki, kənddə bu ənənəyə riayət edilir. Qadınların bir günlük əyləncəsi Levənt Aslan kəndə muxtar təyin ediləndən sonra başlayıb. Yeni muxtarın kəndə qaytardığı ənənəyə görə, ildə bir gün - 24 saat ərzində qadınlarla kişilər rollarını dəyişir. Kişilər evdən çölə çıxmır, qadınlarsa kefləri istədiyi kimi gəzib-dolaşırlar. Kənddə bərpa edilən ənənə Xəlil İnalcık Sosial elmlər liseyinin şagirdi Sıla Yavuzun da diqqətini çəkib. Şagirdin nənəsi bu kənddə yaşayır. Kənddə bir günün qadınlara məxsus olduğunu şagird öz müəllimi Pınar Yıldıza da bildirib. Müəllimlə şagirdin işbirliyi nəticəsində bu ənənə kənddə "Qiraət-Ana" adlı TÜBİTAK layihəsinə çevrilib. TÜBİTAK-ın dəstəyi ilə kənd qadınları maarifləndirilir, onlara uşaqlara baxım, qayğı üzrə təlimlər keçilir. Sıla Yavuz deyib ki, bu ənənənin qadınları necə xoşbəxt etdiyini gördükdə layihə həyata keçirmək qərarına gəlib və müəllimi ilə işə başlayıblar: "TÜBİTAK da bizə dəstək oldu. Burada əsas məqsəd gender bərabərliyinin bərqərar olmasını təmin etmək, qadınların sosial həyatda aktivliyini artırmaqdır". Dibsizgöl məhəlləsinin qadınları da "1 gün sultanlıq" layihəsindən məmnun görünürlər və "Dibsizgöl qadınları olaraq bu günü özümüzə ayırdıq. Kişilərin küçəyə çıxması yasaqdır. Meydan bizə qaldı", deyirlər.



**Məlahət**



# Dünyanın ən bahalı toyu olacaq!

2500 ayrı-ayrı menyu hazırlanacaq

**Hindistanın ən zəngin adamı Mukeş Ambani 28 yaşlı oğlu üçün dünyanın ən bahalı toyunu hazırlayır. 2018-ci ildə qızının toyu üçün 100 milyon dollar xərcləyən Ambaninin Rihanna və illüziyaçı Devid Bleynlə anlaşdığı bildirilir. Bill Qeyts və İvanka Tramp Mukeş Ambaninin oğlu Anant və nişanlısı Radhika Merchantin toy məclisində gözlənilən qonaqlar arasındadır. Toyda qonaqların eyni yeməyi yeməməsi üçün 2500 ayrı menyu hazırlanacaq.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Hindistanın ən zəngin ailələrindən biri üçün bu toy sadəcə toy deyil.

Mərasim hətta dünyanın ən zəngin və güclü insanlarının belə gözünü qamaşdırmaq üçün hazırlanmış bir tamaşadır.

Hindistanın ən varlı adamı Mukeş Ambani gələn ay kiçik oğlu, 28 yaşlı Anant Ambaninin toyu üçün ekstravaqant mərasim keçirməyə hazırlaşır.

Hindistanın yerli qəzetləri Anant Ambaninin Hindistanın ən böyük dərman şirkətlərindən biri olan "Encore Healthcare"ni idarə edən işgüzar ailənin qızı 29 yaşlı Radhika Merchant ilə evlənəcəyi toy şənliklərinin təfərrüatlarını paylaşır.

İyulda keçirilməsi gözlənilən toyun tam təfərrüatları hələlik ictimaiyyətə açıqlanmayıb.

Mart ayında baş tutacaq və üç gün davam edəcək toyqabağı şənlik parlaq və ulduzlu bir tədbirə bənzəyəcək.

Şənlik martın 1-də Ambaninin doğulduğu Qucarat əyalətindəki 3000 hektarlıq bağda üç günlük ziyafətlə başlayacaq.



Bağda 10 milyondan çox ağacın və Asiyanın ən böyük manqo bağının olduğu bildirilir. Burada həm Hindistandan, həm də dünyanın hər yerindən bəbirlər, pələnglər, şirlər də daxil olmaqla 2000 xilas edilmiş heyvan yaşayır. Gecədə məşhur müğənni Rihannanın, illüziyaçı Devid Bleynin isə xüsusi şou ilə çıxış edəcəyi gözlənilir. Mərasimdə qonaq siyahısında hindistanlı milyarderlərdən tutmuş Bollivud məşhurlarına qədər hər kəsin adı var, Bill Qeyts, Mark Zukerberq və İvanka Trampın da mərasimdə iştirak etməyə hazır olduğu bildirilib. Qonaqlara eyni yeməyi iki dəfə yeməmələri üçün üç gün ərzində təxminən 2500 ayrı menyunun təqdim edilməsi gözlənilir. 2018-ci ildə Ambani qızına ölkənin indiyə qədər gördüyü ən bahalı toyunu edib. Burada Beyonce çıxış edib və qonaqlar İtaliyanın Komo gölündə, eləcə də Mumbay və Racastanda ziyafətlərə qatılıblar. Ailə toya 100 milyon dollar xərcləyib. Hindistanda az sayda insan Ambanilər kimi dəbdəbəli toyları ödəyə bilsə də, rəqəmlər Hindistanda toyların getdikcə artdığını göstərir. İndi Hindistan hər il toylara 75 milyard dollardan çox pul xərcləyir ki, bu da onu ölkənin dördüncü ən böyük sənayesinə çevirir.

**Turan**

## Depressiyanı aşkar edə biləcək

Yeni telefon proqramı hazırlayıblar



**Alimlər üz ifadələrinizdən depressiyanı aşkar edən yeni telefon proqramı hazırlayıblar. Süni intellektlə işləyən tətbiqin beş il ərzində buraxılacağı gözlənilir.**

"Şərq" xəbər verrir ki, depressiya, tez-tez uzunmüddətli əhval pozğunluğu olaraq təyin olunan ciddi bir psixi sağlamlıq vəziyyətidir.

Beyində baş verməsinə baxmayaraq, elm adamları üzünüzdə ipucu axtararaq depressiyanı aşkar etmək üçün yeni smartfon proqramı hazırlayıblar.

Tətbiq süni intellektdən istifadə edərək, insanın depressiyaya düşüb-düşmədiyini müəyyən etmək üçün onun baxışları, göz hərəkətləri və başını necə əyməsi kimi üzündəki mikro dəyişiklikləri qiymətləndirir.

Milli Sağlamlıq İnstitutları tərəfindən maliyyələşdirilən proqram iştirakçıların dodaqlarının, gözlərinin və üzlərindəki depressiya xətlərinin vəziyyətinə baxaraq, üz ifadələrində trend aşkar edərsə, ön kamera ilə fotoşəkillər çəkir və xəbərdarlıq göndərir.

Araşdırmaya görə, tətbiq yüzdə 75 nisbətində depressiyaya uğramış insanları düzgün müəyyən edir.

Daha çox araşdırmaya ehtiyac olduğunu söyləyən tərtibatçılar, tətbiqin beş il kimi qısa müddətdə ictimaiyyətə təqdim edilə biləcəyini açıqladılar.

Ancaq tədqiqatçılar, bu və buna bənzər tətbiqlərin tək başına istifadə edilməməsinin təsirli olmayacağını, yalnız xəstələrin gündəlik həyatlarında yaşadıqları simptom dəyişikliklərini ilk mərhələdə aşkarlayaraq tez müdaxilə etmək istədiklərini ifadə etdilər.

**Turan**

## Ötən il Cənubi Koreyada doğum sayı rekord miqdarda azalıb



**Ötən il Cənubi Koreyada yeni doğulanların sayında rekord azalma qeydə alınıb.**

AZƏRTAC "Reuters" agentliyinə istinadla xəbər verir ki, statistikaya görə, 2023-cü ildə Cənubi Koreyada doğulan körpələrin sayı 7,7 faiz azalaraq 229 min 970-ə enib. Bu, statistik məlumatların toplanmağa başladığı 1981-ci ildən bəri ən aşağı göstəricidir.

Koreya Respublikasında doğum sayının azalması tendensiyası artıq ardıcıl olaraq səkkizinci ildir ki, davam edir. Buna yüksək mənzil qiymətləri və işsizlik kimi iqtisadi çətinliklərin səbəb olduğu bildirilir.